# QARABAĞ AZƏRBAYCANDIR!

## Rusiya Avropanı Çinə necə dəyişdi?



9

Səs

№ 012 (6695) 24 yanvar 2023-cü il. Qiyməti 60 qəpik

# Antoni Blinken

## Prezident İlham Əliyevə zəng edib





3

# Azərbaycan Avrasiyanın nəqliyyat qovşağına çevrilir




15

## Qəhrəmanlıq və şərəf tariximiz!



4

## "Avropa parlamentinin ermənipərəst qətnamələrinə adət etmişik"



10

## İnsanlar və heyvanlar bir-birini hansı xəstəliklərə yoluxdura bilər?



12

## BÖYÜK QAYIDIŞIN QURUCULUQ PLANI - I Dövlət Proqramı



8

## Bəzi avtomobillər niyə sığorta edilmir?



16

# 20 Yanvar faciəsi- xalqımızın qəhrəmanlıq səhifəsi!

## Prezident İlham Əliyev 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib

**Qanlı 20 Yanvar faciəsindən 33 il keçdi. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 33-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət edib. Dövlətimizin başçısı ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad edib. Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**



Bəli, qanlı Yanvar hadisələrindən 33 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 33 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.



Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanı açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların həlak olması ilə nəticələndi. Sanki, bunları görməyən Azərbaycanın ovaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar sovet rəhbərliyinin ətəyindən yapışmaqda davam etdilər.



Həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev onlardan fərqli olaraq, həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əslində, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Vətənimizin azadlığı uğrunda canından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı hər zaman Azərbaycan Prezidenti İlham Əliyevin diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilib. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncam və fərmanlar verib. Bunun nəticəsidir ki, şəhid ailələrinin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 653-VIQD nömrəli Qanununun tətbiqi və "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın və "Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 19 aprel tarixli 1341 nömrəli, "Topdansatış ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın və "İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 16 iyun tarixli 1460 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarında və "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 652-VIQD nömrəli Qanununun tətbiqi və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# SÖZÜ İMZASI QƏDƏR QÜVVƏTLİ, DƏYƏRLİ LİDER!

*İLHAM ƏLİYEV: "Mən hər zaman görülmüş işi nümayiş etdirməyi üstün tuturam"*



Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev də ölkənin rəhbəri kimi fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Elə bu günlərdə - yanvarın 17-də Azərbaycan Prezidenti İlham Əliyev Davosda Çinin CGTN televiziya kanalına verdiyi müsahibəsində də bir daha bəyan etdi ki, verdiyim sözün arxasında olmuşam: "Siyasi həyatımda heç vaxt olmayıb ki, mən söz verim və arxasında dayanmayım. Verdiyim bütün sözlər yerinə yetirilib. Digər tərəfdən, mən çox söz vermirəm, çünki nəticəni nümayiş etdirməyi üstün tuturam".

### MƏN HƏR ZAMAN GÖRÜLMÜŞ İŞİ NÜMAYİŞ ETDİRMƏYİ ÜSTÜN TUTURAM

Prezident İlham Əliyevin müsahibəsində ən diqqəti cəlb edən məqam çinli jurnalist sual verməк əvəzinə dövlət başçımızın siyasi fəaliyyətini xarakterizə etməyə çalışdı: "Cənab Prezident, mən 10 dəqiqədir Sizi dinləyirəm. Mən çox işin görüldüyünü, çox şeyə artıq nail olunduğunu eşitdim və bu, olduqca böyük təəssürat yaradır. Çünki son vaxtlar çox söz danışılır, ancaq əməllər daha çox qiymətləndirilir". "Bizim bir neçə ətraflı müsahibəmiz oldu, Sizin çox konstruktiv olduğunuzu xatırlayıram",- deyən xanım jurnalist sözünə davam edərək bildirdi: "Siz öndə olmaq istəyirsiniz ki, insanlara ölkənizin necə hazır olduğunu deyəsiniz. Məni hər zaman bir məsələ maraqlandırır ki, vəd verməк üçün kifayət qədər cəsur və mərd olmaq, ən mühümü isə sonra bu vədləri yerinə yetirmək cəsarətinə sahib olmaq üçün nə lazımdır?".Azərbaycan Prezident İlham Əliyev cavabında: "İlk növbədə, deməк istərdim ki, yerinə yetirə bilmədiyim sözü heç vaxt vermirəm".

Şəxsi keyfiyyətləri, siyasi uzaqgörənliyi və reallığa uyğun çevik qərarlar qəbuletmə bacarığı sayəsində cəmiyyətin bütün zümrələrini ətrafında birləşdirən İlham Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində də xalqın böyük dəstəyini qazanmış və Azərbaycanın siyasi və beynəlxalq arenada mövqelərinin daha da möhkəmlənməsinə və bir sıra vacib sahələrdə mühüm uğurlara imza atmasına nail olmuşdur. Bunu Prezident İlham Əliyev son 19 illik fəaliyyəti, ən vacib məqam isə xalqımızın 30 illik yurd həsrətində olan xalqımız "Dəmir yumruq" siyasəti ilə 44 gün ərzində Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı ilə "Qarabağ Azərbaycandır"mıza qovuşmağımız. Dövlət başçısı bütün çıxışlarında, görüşlərində dönə-dönə vurğulayıb ki, bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir.

Dövlət başçımızın söylədiyi kimi: "Sözüm imzam qədər qüvvətlidir!". Və bu gün son 19 illik prezidentlik dövründə İlham Əliyev verdiyi sözün arxasında dayanıb. Verilən bütün sözlər yerinə yetirilib: "Siyasi həyatımda heç vaxt olmayıb ki, mən söz verim və arxasında dayanmayım. Verdiyim bütün sözlər yerinə yetirilib. Digər tərəfdən, mən çox söz vermirəm, çünki nəticəni nümayiş etdirməyi üstün tuturam. Siz tamamilə haqlısınız ki, çoxlu sözlər danışılır, çoxlu bəyanatlar, açıqlamalar verilir, sonra isə onlar tamamilə yoxa çıxır və bu açıqlamaları, vədləri verənlər, onları ya unudur, ya da özlərini elə aparırlar".

### BİZ YALAN VƏDLƏRƏ ƏSASLANAN ÇOX SAYDA SİYASİ VƏ YA SEÇKİ KAMPANİYALARI GÖRMÜŞÜK, LAKİN BU, UĞURA GƏTİRİB ÇIXARMAYIB

Hələ bu günə kimi, seçki kampaniyalarında yalan vədlər heç bir uğur gətiməyib. Dövlət başçısı müsahibəsi zamanı bildirib ki, biz yalan vədlərə əsaslanan çox sayda siyasi və ya seçki kampaniyaları görmüşük: "Lakin bu, uğura gətirib çıxarmayıb, uğur yalnız müvəqqəti olub. Çünki insanlar hər şeyi çox yaxşı başa düşürlər. Onlar yadda saxlayırlar. Əgər siz vəd verib yerinə yetirməmisinizsə onlar sizi dəstəkləməyəcəklər. Mən hər zaman görülmüş işi nümayiş etdirməyi üstün tuturam və hər zaman planlarımızla bağlı insanlarla məsləhətləşirəm. Mənim Azərbaycan cəmiyyəti ilə çox açıq kommunikasiya kanalım var".

İnsanlar hər şeyi çox yaxşı başa düşürlər və yadda saxlayırlar. "Əgər siz vəd verib yerinə yetirməmisinizsə, onlar sizi dəstəkləməyəcəklər",-deyə Prezident İlham Əliyev onu da bildirdi: "İlk növbədə, siz xalqınızla dürüst davranmalısınız və onda insanlar sizi dəstəkləyəcəklər, sizə etibar edəcəklər". Xalqla bir olmaq, dürüst davranmağın nəticəsidir ki, məhz 44 gün bəs etdi ki, dövlət başçımızın "Dəmir yumruq" siyasəti ilə Güclü, Müzəffər ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə Zəfər qazanaraq Qarabağ Azərbaycanımıza qovuşduq. 2003-cü ildə xalqın böyük etimadı ilə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev "Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm", - deyə inamla və qətiyyətlə söyləmişdi. Zaman xalqın Prezident İlham Əliyevə güvənini, dövlətimizin başçısının isə vədinə sadiqliyini təsdiqlədi. Artıq bu gün Azərbaycan böyük uğurla inkişafa doğru addımlayır.

### BİZİM SİYASƏTİMİZ HƏR ZAMAN, SÖZÜN ƏSL MƏNASINDA, ƏMƏKDAŞLIĞA ƏSASLANIB, ÇÜNKİ BİZ QƏTİ SURƏTDƏ İNANIRIQ Kİ, YALNIZ ƏMƏKDAŞLIQ SAYƏSİNDƏ UĞUR QAZANA BİLƏRSİNİZ

Dövlət başçımız yenə də heç nədən və ya heç kimdən çəkinmədən, özünü dünyanın ağası kimi aparmaq istəyən dövlət başçılarına da açıq və səmimi bir mövqe ortaya qoydu: "Bəzi ölkələrin ambisiyaları, regionda və ya dünyada bir növ liderlik uğrunda mübarizə, potensialın, öz potensialının düzgün hesablanmaması, qarşınızdakının, opponentinizin olduğundan aşağı qiymətləndirilməsi. Bu, etimadsızlığa, gərginliyə və müharibələrə gətirib çıxarır. Bizim siyasətimiz hər zaman, sözün əsl mənasında, əməkdaşlığa əsaslanıb, çünki biz qəti surətdə inanırıq ki, yalnız əməkdaşlıq sayəsində uğur qazana bilərsiniz".

Prezident İlham Əliyev Çinin CGTN telekanalına müsahibəsində Çinlə Azərbaycan arasında yaxşı münasibətlərin olduğunu da bildirdi: "Baxın, Çin dünyada ən çox uğur qazanmış ölkələrdəndir və dünyanın aparıcı iqtisadiyyatlarındandır. Siz buna öz əməyiniz, xalqınızın və ölkə rəhbərliyinin müdrikliyi və nəticəyönümlü səylərıniz sayəsində nail olmusunuz". Prezident İlham Əliyev öz müsahibəsində vurğulayıb ki, Sədr Si Cinpinlə dəfələrlə görüşməsindən və gələcək əməkdaşlığın çox məhsuldar müzakirələr apardığını vurğulayıb: "Bir kəmər, bir yol" Sammiti çərçivəsində Pekində Sədr Si Cinpinlə görüşüm zamanı o məni Çinin böyük dostu adlandırdı".

Bəli, bu gün düşdüyü dalandan çıxa bilmək üçün Ermənistanın yeganə xilas yolu isə Azərbaycanın təklif etdiyi sülh müqaviləsini imzalamaq, əməkdaşlıq münasibətləri yaratmaqdır. Bu, həm də Ermənistanın imzasının olduğu üçtərəfli bəyanatların şərt və tələbləridir. Çünki Azərbaycan Prezidenti İlham Əliyev regionda yeni reallıqların müəllifidir və postmünaqişə mərhələsinin ümumi geosiyasi mühitinin formalaşmasında əsas söz sahibidir və mövcud regional geosiyasi vəziyyəti obyektiv qiymətləndirir. Bəli, bu günün reallıqları onu göstərir ki, qələbəmizdən ötən iki il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan - SÖZÜ İMZASI QƏDƏR QÜVVƏTLİ OLAN LİDER Prezident İlham Əliyevin müsahibəsində dediyi kimi: "Mən deməк olar ki, 20 illik prezidentliyim dövründə söylədiyim hər bir sözə görə məsuliyyət daşıya bilərəm. Millətimizin əldə etdiyi ən böyük nəticələrdən biri işğal altındakı ərazilərin 2 il əvvəl azad edilməsi oldu. Bu, həm də tarixi nailiyyət idi, bəlkə də ən mühüm tarixi nailiyyət".

**RƏFİQƏ KAMALQIZI**



## Antoni Blinken Prezident İlham Əliyevə zəng edib

Yanvarın 23-də ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı ABŞ dövlət katibi Azərbaycan ərazisində Laçın dəhlizində yaranmış vəziyyətlə bağlı narahatlığını bildirib. Antoni Blinken ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına sadiqliyini ifadə edib və sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini bildirib.

Prezident İlham Əliyev Laçın-Xankəndi yolunda hər hansı blokadanın olmadığını qeyd edərək, 2022-ci il 12 dekabr tarixindən etibarən 980-nə yaxın nəqliyyat vasitəsinin bu yoldan keçidinin təmin olunduğunu vurğulayaraq, onların 850-dən çoxunun Rusiya sülhməramlılarına, 120-dən artığının isə Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus olduğunu deyib. Eyni zamanda, Azərbaycan Prezidenti Qarabağda yaşayan 90-a yaxın xəstə və tibbi yardıma ehtiyacı olan şəxsin Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəsilə Ermənistana aparılmasının təmin edildiyini vurğulayıb. Prezident İlham Əliyev bildirib ki, bütün bunlar Laçın-Xankəndi yolunun Azərbaycan tərəfindən bağlanmadığını göstərir.

Dövlətimizin başçısı vurğulayıb ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində Azərbaycanın faydalı qazıntı yataqlarının qanunsuz istismarı dayandırılmalı və həmin ərazidə Azərbaycanın daimi monitorinq və təftiş aparmaq imkanı təmin edilməlidir. Azərbaycan Prezidenti Ermənistan tərəfindən 2021-ci ilin istehsalı olan minaların qanunsuz olaraq Laçın yolundan istifadə edilərək daşındığını bildirib.

Prezident İlham Əliyev ölkəmizin sülh prosesinə və Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin normallaşdırılmasına sadiq olduğunu qeyd edib. Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan ilə Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi beynəlxalq hüququn norma və prinsipləri, Azərbaycanın təqdim etdiyi beş prinsip əsasında yalnız ikitərəfli münasibətlərin normallaşdırılmasını özündə ehtiva etməlidir.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ iqtisadi zonasında yaşayan mülki erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında təmin olunacağını qeyd edib. Telefon söhbəti əsnasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Qəhrəmanlıq və şərəf tariximiz!

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Şəhidlər Xiyabanını ziyarət ediblər



**20 Yanvar faciəsinin 33-cu ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər Xiyabanını ziyarət ediblər.**

YAP-ın nümayəndələri Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər gül dəstələri düzüblər. Partiya nümayəndələri tərəfindən "Türk şəhidliyi" abidəsi də ziyarət olunub, abidənin önünə gül dəstələri qoyulub.



# "Rəqəmsal jurnalistika" təlimlərinə start verilib





Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə "Rəqəmsal jurnalistika" təlimlərinə başlanılıb. Tədbirdə açılış nitqi ilə çıxış edən MEDİA Agentliyinin media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli bu təlimin redaksiya siyasətinin rəqəmsal strategiyasının qurulması, onlayn məzmun yaratma üsulları vasitəsilə informasiyanın düzgün auditoriyaya çatdırılması və bütünlükdə mediada rəqəmsallığın yaratdığı yeniliklər çərçivəsində jurnalistlərin bacarıqlarının inkişafında müstəsna rol oynayacağını bildirib.

"Rəqəmsal jurnalistika" mövzusunda keçirilən təlimlərdə "Daily Mail UK", "The Australian", "Sunday Telegraph UK" kimi bir çox tanınmış xəbər agentliklərində redaktor vəzifəsində çalışmış, hazırda baş ofisi Londonda yerləşən "High Park Communications" media şirkətinin təsisçisi və direktoru olan Kolin Gibson çıxış edib.

O, iştirakçılara "Biznes planlarının və redaksiya siyasətinin rəqəmsal strategiyaya uyğunlaşdırılması", "Rəqəmsal media kampaniyalarının yaradılması, düzgün auditoriyaya çatdırılması və izlənilməsi", "Analitikaya əsaslanan rəqəmsal media: daha çox kütləyə çatmaq üçün data əsaslı əməliyyatların optimallaşdırılması" və s. kimi mövzularda təlim keçib, qeyd olunan istiqamətlərdə geniş fikir mübadiləsi aparılıb.

Yanvarın 26-na qədər davam edəcək "Rəqəmsal jurnalistika" təlim proqramının əsas məqsədi jurnalistika sahəsində yaranan yeni imkanların və mediada yeni tendensiyaların öyrənilməsi, rəqəmsal media sahəsində peşəkar vərdişlərin inkişaf etdirilməsi, rəqəmsal media ekosisteminin inkişafına töhfə verilməsidir.

# "Türkiyə qardaş Azərbaycanın haqlı mübarizəsində hər zaman yanındadır"

## *Türkiyə səfiri Qərbi Azərbaycan İcmasının yeni binasında olub*

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçının rəhbərlik etdiyi nümayəndə heyəti Qərbi Azərbaycan İcmasının yeni binasında yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, səfir Cahit Bağçı İcmanın İdarə Heyətinin sədri Əziz Ələkbərli və İcmanın əsas orqanlarının rəhbərləri ilə görüşüb. Türk diplomata İcmanın nizamnaməsi, strukturu və fəaliyyəti haqqında məlumat verilib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli İcmanı ziyarət edən ilk xarici dövlətin təmsilçisinin Türkiyənin səfirinin olmasından məmnunluğunu ifadə edib. Türkiyəli diplomata ötən əsr boyunca dörd dəfə - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə azərbaycanlıların öz ata-baba yurdundan, indi "Ermənistan" adlanan coğrafi məkandan deportasiya edilməsi, bu hadisələr zamanı həmvətənlərimizə qarşı törədilmiş müharibə və insanlıq əleyhinə cinayətlər barədə danışıb.

Səfirin diqqətinə çatdırılıb ki, Ermənistan hökuməti bu ölkədən qovulmuş azərbaycanlıların hüquqlarını bərpa etmək sahəsində tədbir görməkdən imtina edir. Eyni zamanda, onları vətənlərində yaşamaq hüququndan istifadə imkanından məhrum etməkdədir.



Qeyd olunub ki, doğma yurdlarından qovulmuş azərbaycanlıların Ümumdünya İnsan Haqları Bəyannaməsi və digər beynəlxalq konvensiyalar çərçivəsində tanınmış hüquqlarının təmin edilməsi üçün beynəlxalq ictimaiyyətin dəstəyi vacibdir.

Səfir Cahit Bağçı Türkiyənin Şuşa Bəyannaməsi ilə əlaqələri müttəfiqlik səviyyəsinə çatdırılan qardaş Azərbaycanın haqlı mübarizəsində hər zaman yanında olduğunu, bundan sonra da olmağa davam edəcəyini bildirib.





# Paşinyanın Davos qorxusu və bənzər reallıqlar

## Suren Surinyants: "Danışıqlardan qaçmaqla siz nəyə gətirib-çıxarmaq istəyirsiniz? Yoxsa yenidən cavan oğlanları qurban verərək xalqın sizi xəyanətkar adlandırmamağınızı istəyəcəksiniz?"

**Ermənistanın baş naziri Nikol Paşinyanın Davod İqtisadi Forumuna getməməsinin ardınca ölkəsində növbəti bir hadisənin - Azərbaycanla delimitasiya olunmamış sərhəd yaxınlığında, Ağkilsə istiqamətində hərbi kazarmanın güclü yanğına məruz qalması və 15 erməni hərbçisinin yanaraq kül olması ölkədaxili vəziyyətin daha da gərginləşməsinə səbəb olub. Lakin sözügedən məsələlərin ardıcıllıq prinsiplərinə söykənərək sözügedən mövzunu daha geniş təfsilatda araşdıraq.**

Beləliklə, Paşinyan Davosa getmədi və bu, onun sayca ikinci dəfə belə bir mötəbər tədbirdən imtina etməsidir. Artıq Ermənistandakı siyasi ictimai rəy də belə bir qənaətə gəlməyə başlayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev Davosda ölkəsi üçün bütün müsbət məqamlardan istifadə edir, Azərbaycanın yalnız iqtisadi deyil, həm də siyasi mövqelərini bu və ya digər formalarda möhkəmləndidir, yeni partnyorlarla münbit əlaqələr qurur, regional əməkdaşlıq istiqamətində daha müfəssəl mexanizmləri işə salır, Ermənistanın baş naziri isə nəinki öz yerində addımlayır, əksinə ölkəni daha dərin uçuruma doğru sürətlə yuvarlandırır.

### Erməni siyasətçisinə görə, Ararat Mirzoyan gecikmiş bəyanatla çıxış edir və görüntü yaratmağa çalışır ki, guya İrəvan beynəlxalq ictimaiyyətin çağırışlarını izləyir və intensiv danışıqlar aparmağa hazırdır

Məsələ ondadır ki, bu mövzu ilə bağlı Ermənistanın "Demokratik alternativ" partiyasının siyasi şurasının sədri Suren Surinyants özünün Facebook səhifəsində bir sıra diqqət çəkən məqamlara toxunub. Onun fikrincə, artıq Paşinyanın Davosa getməməsinin səbəbləri yavaş-yavaş üzə çıxmağa başlayıb. SİTAT: "O, bu dəfə Qabriaşvilinin (Gürcüstanın baş naziri-R.R.) İlham Əliyevlə üçtərəfli görüşmək təklifini rədd edib".

Erməni siyasətçisi xatırladıb ki, İlham Əliyev Davosdan Paşinyanı danışıqlardan yayınmaqda ittiham etdiyi bir zamanda, xarici işlər naziri Ararat Mirzoyan gecikmiş bəyanatla çıxış edir və guya görüntü yaratmağa çalışır ki, guya İrəvan beynəlxalq ictimaiyyətin çağırışlarını izləyir və intensiv danışıqlar aparmağa hazırdır. Suren Surinyants qeyd edib. SİTAT: "Belə bir münasibətlə danışıqlardan qaçmaqla siz nəyə gətirib-çıxarmaq istəyirsiniz? Yoxsa yenidən cavan oğlanları qurban verərək xalqın sizi xəyanətkar adlandırmamağınızı istəyəcəksiniz?".

Bəli, Surinyants doğru nəticə çıxarır ki, əgər Ermənistanın mövcud hakimiyyəti danışıqlardan yayınmağa davam edəcəksə, üzərinə düşən məsuliyyəti dərk etməyəcəksə rəsmi Bakı buna çox səbr və təmkin nümayiş etdirməyəcək. Yeri gəlmişkən, erməni siyasətçi bu fikirlərini şərh edərkən çox yaqin ki, Azərbaycan Prezidenti İlham Əliyevin ölkə jurnalistlərinə verdiyi son müsahibəsindəki "2023-cü il Ermənistanın seçimi üçün son il olacaq" bəyanatını da xatırlayıb.

### Boris Murazi: "Məhz hakim gücün günahı ucbatından bizim əsgərlər belə bir şəraitlə üz-üzə qalıblar"

Qaldı ki, Paşinyanın xəyanətinə, əslində, yuxarıda qeyd etdiyimiz kimi, Paşinyan və onun hökuməti onsuz da əsgərlərini bu və ya digər şəkildə qurban verməkdə davam edirlər - hətta qeyri-döyüş şəraitində. Buna misal olaraq tarixi Qərbi Azərbaycan torpaqlarında, Ağkilsədə yanan kazarma faktı da buna sübutdur. Bunu isə yalnız biz demirik, elə digər erməni siyasətçiləri də bildirirlər.

Məsələn, erməni siyasi yazarı, Politik.am saytının redaktoru Boris Murazi 5-ci kanalın "İntevyu" proqramına müsahibəsində deyib. SİTAT: "Məhz hakim gücün günahı ucbatından bizim əsgərlər belə bir şəraitlə üz-üzə qalıblar".

Murazi bildirib ki, hərbi qulluqçuların valideynləri hərbi hissələrə gedərək övladlarının hansı şəraitlərdə hərbi xidmət keçmələrini yoxlamalıdırlar. Onun sözlərinə görə, 2020-ci ildən sonra cəbhə xəttində formalaşdırılmış orduda xidmət keçən hərbi qulluqçular dəhşətli şəraitdə yaşayırlar.

Erməni hərbi eksperti Karen Vratnesyan isə bildirib ki, əslində dünyanın istənilən ordularında faciəvi hadisələr yaşanır. Lakin mövcud vəziyyətdə söhbət yanlışlıqdan getmir, əksinə, ortada bütövlükdə Ermənistanın müdafiə sisteminin deqradasiyaya uğraması faktı mövcuddur. Ekspert bildirib ki, bütün bunların arxasında Nikol Paşinyanın uğursuz kadr siyasəti, habelə silahlı qüvvələrin bir institut olaraq qəsdən zəifləddilməsi hədəfi dayanır.

Beləliklə, fakt budur ki, erməni ictimai-siyasi rəyində baş nazir bütün cəhətlərdən hədəfə alınıb və bu baxımdan, onun istər Davos İqtisadi Forumuna getməməsi, istərsə də kazarmada baş verən dəhşətli yanğın olayı bir-birindən fərqlənməyən reallıqdır.

**Rövşən RƏSULOV**

# "Avropa parlamentariləri siyasi maraqlarını güdərək beynəlxalq hüququ pozurlar"

Avropa Parlamentinin qəbul etdiyi son qətnamə təşkilatın ikili standartlardan çıxış etdiyini bir daha təsdiqləyir. Bu təşkilatın Azərbaycana qarşı qərəzli sənəd qəbul etməsi ilk dəfə deyil. Erməni lobbisinin təsiri ilə qəbul olunmuş son qətnamədə də Laçın-Xankəndi yolu ətrafında baş verən hadisələr təhrif olunur. SİA xəbər verir ki, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

O, əslində həmin sənədin qəbul edilməsinin Avropa Parlamentinin prinsiplərinə zidd olduğunu bildirib: "Çünki təşkilatın özünün qəbul etdiyi bir çox sənədlərdə, eləcə də fəaliyyət prinsiplərində beynəlxalq hüququn normaları əsas götürülür. Lakin bu günlərdə Laçın yolu ilə bağlı qəbul edilmiş qətnamədə isə beynəlxalq hüquq normaları ayaq altına atılır. Nəzərə almaq lazımdır ki, aksiyanın keçirildiyi yer Azərbaycanın suveren ərazisidir və





dinc xarakter daşıyır. Sərbəst toplaşmaq azadlığı fundamental insan hüquqlarından biridir və bu, Avropa institutlarının təşviq etdiyi əsas məsələlərdəndir. Laçın yolunda da ekoloqlarımız, ictimai fəallarımız dinc etiraz aksiyası keçirirlər. Amma nədənsə Avropa parlamentariləri onların bu hüquqlarını görməzdən gəlirlər. Bu, o deməkdir ki, həmin təşkilat üçün artıq heç bir dəyər yoxdur. Yalnız, öz siyasi maraqlarını güdərək beynəlxalq hüququ pozurlar".

Avropa Parlamentinin bir çox üzvlərinin siyasi korrupsiyaya qurşandığını vurğulayan deputat bildirib ki, bir müddət əvvəl həmin təşkilatın vitse-prezidentinin korrupsiya ittihamı ilə həbs olunması da bunu sübut edir. Həmin şəxs ermənipərəst mövqeyi ilə tanınırdı.

"Ermənistanın və Qarabağ separatçılarının humanitar böhran və blokada iddiası tamamilə yalandır. Bunu təsdiq edən kifayət qədər videofaktlar var. Amma görünən odur ki, ermənipərəst dairələr hər vəchlə beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Avropa Parlamentinin sənədi də bu yanlış məqsədə xidmət edir. Beynəlxalq hüquqa zidd olan bu qətnamənin heç bir hüquqi qüvvəsi yoxdur və kağız parçasından başqa bir şey deyil. Azərbaycanın mövqeyi doğrudur və beynəlxalq hüquqa əsaslanır. Eləcə də, Azərbaycan güclü dövlətdir və heç kim onunla diktə dilində danışa bilməz", - deyən Sevinc Fətəliyeva fikirlərini yekunlaşdırıb.

# Güclü iqtisadiyyata malik olan Azərbaycan yeni reallıqlar fonunda

Prezident İlham Əliyevin yürütdüyü müdrik və uzaqgörən siyasəti qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirdi. İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkdi, bir çox ölkədə öyrənilməyə başlandı və örnəyə çevrildi. Müasir modern dövlət kimi Azərbaycan kosmik dövlətlər ailəsinə daxil oldu. Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir. Bu gün isə Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır. Son 19 ildə müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Müstəqil dövlətimizdə kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf əldə olunan nailiyyətlərdir.



## MÖVCUD VƏZİYYƏT, HƏDƏFLƏNƏN MƏQSƏDLƏR

Prezidentin müntəzəm olaraq bölgələrə etdiyi səfərlərdə yeni obyektlər açılır, infrastruktur layihələri icra olunur. Elm və təhsilə, səhiyyəyə, hərbiyə, mədəniyyətə, sosial-iqtisadi məsələlərə, bir sözlə bütün sahələrə dövlət başçısının xüsusi diqqəti və qayğısı müşahidə olunur. Prezident İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqının hərbi sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir.





Ötən on doqquz il, aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. İqtisadi siyasətin əsasən, sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək, cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Aztəminatlı vətəndaşların sosial müdafiəsi, istehsalçı və istehlakçının maraqlarının uzlaşdırılması Cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən prioritet istiqamətlərdən biri kimi diqqəti çəkir.

44 günlük Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad olunması bir daha dünyaya Azərbaycanın gücünü, ən əsası da güclü Lideri olduğunu göstərmiş oldu. Tarixi Qələbəmizin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq və digər məsələləri reallaşdırmaq məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı böyük əhəmiyyət kəsb edir. Qeyd edək ki, dövlət başçısının 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Milli Prioritetindən biri kimi müəyyən edilib. Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr və s. öz əksini tapıb.Əlbəttə ki, müasir dövrün tələbləri nəzərə alınaraq mütərəqqi beynəlxalq təcrübə, nəzərə alınıb və Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir. Güclü iqtisadi inkişafa sahib olan Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2,2 milyard ABŞ dolları məbləğində vəsait ayrılıb.

## QURUCULUQ MEYDANINDA SÖZ VƏ ƏMƏLİN VƏHDƏTİ

Böyük Qayıdışın ilk ünvanı olan Ağalı kəndinə birinci mərhələdə 41 ailə köçürülüb. İlkin mərhələdə köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. İndi isə digər ərazilərimizə qayıdış olacaq. "Ən tez öz doğma ocaqlarına qayıdan laçınlılar olacaq. Çünki dərhal göstəriş verildi, indi Laçın şəhərində geniş quruculuq-bərpa işləri gedir və indi baxacağıq, bu il biz Laçın şəhərinə ilk laçınlıları nə vaxt qaytaracağıq. Bu il Zabux və Sus kəndlərinə də keçmiş köçkünləri qaytaracağıq. Zabux kəndində hansısa varlı erməni tərəfindən evlər tikilibdir. Mən o evləri müvəqqəti olaraq hərbçilərə vermişəm. Mən dedim ki, bizim vətəndaşlar o evlərdə yaşamayacaq. Onlardan biz kazarma kimi istifadə edirik. Amma zabuxlular üçün Zabux kəndində yeni qəsəbə salınır və bu il biz onları oraya göndərəcəyik"-deyə Prezident müsahibələrinin birində bildirib.

Bildirək ki, Füzuli Beynəlxalq Hava Limanı cəmi səkkiz ay ərzində tikildi və çox keçmədi ki, Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə verildi. 2025-ci ildə isə Laçında Beynəlxalq Hava Limanının istifadəyə verilməsi nəzərdə tutulur. Bərdə-Ağdam dəmir yolu 2023-cü ildə istifadəyə veriləcək. Beynəlxalq hava limanlarının Füzulidə, eləcə də Zəngilanda istifadəyə verilməsi Azərbaycanın nəhəng quruculuq işlərinin həyata keçirməkdə iqtisadi gücə sahib olduğunu göstərir. Azərbaycan bu gün nəhəng quruculuq meydanında lahiyələri ilə sözü ilə əməlin vəhdət təşkil olunduğunu dünyaya təqdim edir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel olacaq, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq. Bütün azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa edilib. Azərbaycanda inşa ediləcək 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının təməli qoyulub. İşğaldan azad olunmuş ərazilərdə bərpaolunan enerjinin potensialı on min meqavat təşkil edir. Artıq bir neçə su elektrik stansiyasının açılışı olub. Bu gün bir çox ərazilərimiz kimi, Tərtər rayonunun işğaldan azad edilmiş Talış kəndində də bərpa-quruculuq işləri davam etdirilir. İlkin mərhələdə 20 ev müasir tələblərə uyğun qurularaq bir zamanlar doğma yurdlarından didərgin düşən ailələrə təhvil veriləcək. Artıq 20 evin əsaslı təmir-bərpa işləri başa çatıb. Evlərin daxilində kommunikasiya sistemi çəkilib, hər bir ev mətbəx mebeli ilə təchiz edilib. Məişət avadanlıqları sakinlərin köçürülməsindən öncə qurulub, tam hazır və işlək vəziyyətə gətiriləcək. Kənddə inzibati binada, məktəbdə, uşaq bağçasında, xeyir-şər evi və mağazada əsaslı təmir işləri davam edir. Talış kəndində qaz, elektrik, su, rabitə xətlərinin çəkilişi aparılır. Müasir kanalizasiya sistemi inşa olunur. Kəndarası yollar da yenidən qurulur. Yolların işıqlanması günəş panelləri ilə çalışan işıq dayaqları vasitəsilə həyata keçiriləcək.

Günümüzün reallıqları, aparılan böyük quruculuq işləri onu göstərir ki, işğaldan azad olunmuş ərazilərimiz cənnətə çevriləcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

TƏHLİL + XATIRLAMA

# Kəndə kino gəlib!




**Kino... Dörd hərf, sadə bir söz, lakin dünyalar, həyatlar, talelər, hadisələr, acılar, şirinlər sığan bir ifadə. Yarandığı gündən insanların ən sevdiyi əyləncəsi, seyr etmək üçün saatlarını verdikləri, kilometrlərlə yol qət etdikləri kino. Müasir dövrümüzdə kəndlərimizdə kino və təbii ki, kinoya gedənlər olmadığı, şəhərlərimizdə isə buna çox az dərəcədə təsadüf etdiyimiz bir vaxtda xəyalən o dövrlərə gedərək ən ucqar kəndlərimizdə belə insanların kino marağını, sevgisini xatırlamağın yerinə düşəcəyini düşündük...**

Bir vaxtlar vardı, kəndlərə kino gələndə insanların sevincinin həddi-hüdudu olmurdu. Adətən kəndin mərkəzində, hər kəsin yolu düşən bir yerdə, əsasən mağazanın yanında afişa asırdılar. Buradan da bütün evlərə xəbər yayılırdı ki, kəndə kino gəlib. Kəndlərimizin zəhmətkeş insanları isə işlərini axşamçağınadək yekunlaşdırmağı, axşam kinoya getməyi planlaşdırırdı.

Yəqin bunu çoxları xatırlayar ki, kəndlərimizdə kinoya getmək, film izləmək nə qədər maraqlı olurdu. Biz o vaxtlar uşaq idik. Kəndənənə-babamızın yanına gedəndə həmin kinoların qonağı olmuşduq. Və elə buna görə də çox gözəl təəssüratlar bu gün də yaddaşımızın bir küncündə qalmaqdadır.

Elə ki, axşam oldu, yollanırdıq kinoya baxmağa. Baxırdıq ki, ətrafdakı insanlardan kimi əlində stul, kimi döşəkcə aparır. O vaxtlar kəndlərimizdə çox da böyük olmayan klublar vardı. Mədəniyyət klubları deyirdilər onlara. Həmin klubda film də nümayiş etdirilirdi. Həmin kinolar yay fəsillərində daha maraqlı olurdu. Biz yayda kənddə çox olduğumuz üçün bunun şahidi olmuşduq. Klubdakı oturacaqlar dolandan sonra qarşıda camaat döşəkcələrini yerə sərib üstündə əyləşirdi. İki sıra olan oturacaqların arasına da evlərdən gətirilən stullar düzülürdü. Daha sonra isə qapılar açıq qoyulurdu, ona görə ki, klubda özünə yer tapa bilməyənlər də film izləyə bilsinlər. Onlar ya stullarını qoyub, ya da döşəkcələrini yerə sərib üstündə əyləşir və oradan filmi izləyirdilər.



İçəridə o qədər sakitlik olurdu ki, insanların nəfəsləri duyulurdu. Camaat o qədər maraqla izləyirdi ki, onlara qoşulan biz uşaqlar da filmin nə zaman başlayıb, nə zaman bitdiyinin fərqində olmurduq. Bir də baxırdıq ki, film bitib. Lakin bu qədər gözəl, mehribanlıq şəraitində keçən anların bitməsini əsla arzulamırdıq.



Lakin film başladığı kimi, bitməli idi də. Bitəndən sonra hər kəs öz qonşusu, qohumu ilə birlikdə evə yollanırdı və yolboyu o qədər maraqlı müzakirələr aparılırdı ki, sanki yeni bir filmi də yolda izləyirdik.

***

İllər ötürdü, biz isə böyüyürdük. O zamanlar yaşadığımız şəhər, qəsəbələrimizdə onsuz da kinoya yollanırdıq. Filmlərə baxırdıq. Bizi ya məktəbdən müəllimlərimiz, ya da valideynlərimiz kinoya aparırdı. Bir-birindən maraqlı filmlər izləyirdik. Səhəri gün ədəbiyyat müəllimimiz həmin film haqqında inşa yazmağı da bizə tapşırırdı. Biz də yazırdıq, filmə, filmin ssenarisinə, aktyorlara, hadisələrə münasibət bildirirdik. Bütün bunların əhatəsində böyüyür, dünyagörüşümüzü formalaşdırırdıq.

Bəzən oxuduğumuz əsərlərin ssenarisi əsasında çəkilən filmlərə tamaşa edirdik. Bunlar bizim üçün daha maraqlı olurdu. Sanki kitabdakı hərflərin sözlərə çevrilib yaratdığı qiyabi mənzərələr birdən-birə gözlərimiz önündə əyaniləşir, obrazları həyatımıza gətirir və onların yaşadığı talelərlə bizi bir daha tanış edirdi. Bəzən olurdu ki, kinolardan elə təəssüratla ayrılırdıq ki, həftələrlə özümüzə gələ bilmirdik. Hadisələr bizi öz əsarəti ağuşuna alıb haradan haraya aparırdı. Bəzən filmlərdəki talelərdə öz həyatımızı görürdük, onu özümüzə daha yaxın hiss edirdik. Bəzən həyatımızdakı bir hadisənin cavabını məhz filmlərdə tapırdıq. Biz doğru hərəkət etməyi, qərar verməyi baxdığımız filmlərdən öyrənirdik. Bəzən, yox həmin filmdəki kimi etsək, daha yaxşı olar, deyib, planlaşdırdığımız addımdan vaz keçir, eynilə baxdığımız filmdəki kimi hərəkət etməklə heç də səhv etmədiyimizi təsdiq edirdik.

Necə ki, oxuduğumuz onlarla, yüzlərlə kitab bizi kamilləşdirir, həyatın sirrini-sözünü, düzgün seçimi, düzgün qərar verməyi, yaxşını pisdən ayırmağı, hansı addımın doğru, hansının yanlış olduğunu öyrədirdi, eləcə də baxdığımız onlarla film də həyatımızda eyni funksiyada idi.

Elə ki, 1990-cı illər arxada qaldı, qarşıdakı illərdə həyatımıza yavaş-yavaş internet, smartfon telefonlar daxil oldu, biz də yavaş-yavaş kinoteatrlardan, klublardan uzaqlaşmağa başladıq. Evlərimizə doğru geri çəkildik. Ta o evlərdən çıxıb film izləmək üçün yol getmədik, buna vaxt ayırmadıq. Başladıq internetdən, telefonlardan film izləməyə. Lakin bu, kinoteatrlarda geniş ekranlarda izlədiyimiz filmlər keyfiyyətdə oldumu ? Xeyr, olmadı. Həm də öz kinomuz getdi, yerinə dünyanın hər yerindən olan filmlər gəldi.

***

Yeni dünyamıza yeni filmlər qədəm qoydu. Teleseriallar yarandı. Aylarla, illərlə bitməyən seriallar. Həmin seriallar artıq neçə-neçə onilliklərdir ki, bizləri özünə bağlayıb. Biz olmuşuq həmin serialların aludəsi, bəzi hallarda isə xəstəsi. Onlarla mövsümə başlayıb, onlarla mövsümü tamamlayırıq. Dikilirik televizorların qarşısına, saatlarla mentalitetimizə, adət-ənənələrimizə, yaşam tərzimizə uyğun olmayan serialları izləmək üçün.

Daha sonra yeni-yeni film proqramları ortaya çıxdı. Başladıq həmin proqramlar vasitəsilə filmlər izləməyə. Baxdıq ki, bu filmlər biz baxdığımız filmlərdən çox fərqlidir. Bu filmlərdə dəhşətlər, vəhşətlər gördük, söyüşlər eşitdik. Bir canlının həyatına qıyıb, əsla narahat olmayan insanları gördük. Həyatımıza, cəmiyyətimizə heç uyğun olmayan mənzərələrlə qarşılaşdıq. Bir vaxtlar ailəliklə film seyr etdiyimiz təqdirdə, bunun artıq əsla mümkün olmadığını dərk etdik. Nəticədə uşaqları bizimlə birlikdə film seyr etməkdən uzaqlaşdırdıq. Belə olanda isə uşaqlarımız daha dəhşətli filmlər izləməyə başladılar. İnternet klublarında dava-dalaş, vuruşma, ölüm, dəhşət və vəhşət dolu filmlər təqdim olundu övladlarımıza. Uşaqlarımız da həmin filmləri izləmək üçün min bir həvəslə internet klublara yollandılar. Aludəçiyə çevrildilər. Biz də uşaqları evlərimizə yığmaq üçün gedib həmin filmlərin diskini alıb evə gətirdik və gözümüzün qarşısında "baxın",- dedik. Ta dedik ki, bu uşaq nəyə baxır, niyə baxır?..

***

Yeni dünyamızda əslində nə uşaqlarımız, nə də özümüz yaşadığımız həyata uyğun olmayan filmlərə baxmağa başladıq. Öz ölkəmizin istehsal etdiyi filmlər artıq evlərimizdən, telefonlarımızdan uzaq düşdü. Hə, nə olar, adam tək öz filmlərinə baxmaz ki, xarici filmlərə də baxmaq, oxuduğumuz kitablardakı kimi dünya ölkələri ilə də tanış olmaq gərəkdir. Lakin biz bu gərəklilərdən çox gərəksizlərə qapımızı açdıq. Ayağımız kinoteatrlardan kəsildi. Evimizdə oturub dünyanın bütün ölkələrinin filmlərini izləməyə başladıq. Valideyn bir tərəfdə, uşaq bir tərəfdə... Bir də başımızı qaldırıb ətrafa, dünənə baxanda itirdiklərimizin çox olduğunu gördük. Lakin artıq çox gec idi.

İndi nümunə üçün gedib məktəblərimizdə bir sorğu keçirsək, sual etsək ki, kim axırıncı dəfə hansı Azərbaycan filmini izləyib, bu suala neçə şagird və hansı şəkildə cavab verəcək, bu, aydındır. Bu gün yetişməkdə olan gənc nəslin əksəriyyəti filmlərimizi seyr etməyiblər. Adlarını da bilmirlər. Bəzi intellektual yarışmalar var ki, orada filmlərimizdən göstərilən bir parçanın hansı filmə aid olduğunu iştirakçıların heç biri bilmir. Bu, o deməkdir ki, artıq gənc nəsil filmlərimizdən xəbərsizdir. O qədər gözəl ənənələr, adətlər, mental və ailə dəyərlərini özündə yaşadan filmlərdən çox uzaqdadırlar.

Bütün bunlar üçün isə onlar deyil, biz günahkarıq. Onların böyükləri- ata-anaları olan bizlər. Çünki biz vaxt ayırıb uşaqlarımızla birlikdə bu filmləri izləməmişik. Bunun əvəzinə tanış olmadığımız adətlər çərçivəsinə uyğun film disklərini alıb uşaqlarımıza verib onların bu filmləri izləməsinə səbəb olmuşuq. Sabahısı gün tərbiyələrində bir problem ortaya çıxanda isə, "bu uşaq gedib kimə oxşadı?", "bu nə üçün belə hərəkət edir?",- deyə onları tənbeh eləməyə başlayırıq. Ancaq düşünmək istəmirik ki, övladımıza nə etmişiksə, özümüz etmişik.

Beləliklə, internetdən düzgün yararlana bilməməyimiz, kinoteatrlardan ayağımızı kəsməyimiz, evimizdən filmlərimizi uzaqlaşdırmağımız qarşımızda yeni bir dövr açır. Bu dövrdə itmiş adət-ənənələrimiz, cəmiyyətimizə xas olmayan əlamətlər, uzun illərdən bəri xalqın qoruyub saxladığı dəyərlərdən başqa hər şey görünür. Düşünəndə isə deyə biləcəyimiz tək bir söz var: təəssüf.

***

Azərbaycan kinosu xalqımızın maariflənməsində, estetik zövqünün formalaşmasında, milli və vətənpərvərlik hissinin güclənməsində özünəməxsus rol oynamış, milli-mənəvi dəyərlərimizi və adət-ənənələrimizi yaşatmışdır. Milli kino sənətimizin bu cəhətlərini yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev demişdir: "Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşubdur... Xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir".

Biz bu gün Azərbaycan kinosunu hansı dərəcədə seyr edirik? Bəli, yetişməyimizdə, formalaşmağımızda böyük əhəmiyyətə malik olan kinolarımızı illər öncədən artıq arxivlərə atmışıq. Heç ölkəmizin telekanalları da əvvəlki illərdəki qədər filmlərimizə yer ayırmırlar. İndi telekanallarımızada hind, türk, rus və sair film günləri mövcuddur ki, həmin günlərin məlum saatlarında həmin filmləri seyr etmək olar.

***

Orta yaş qrupunda olan insanlarsa o illəri hələ də xatırlamaqdadır. Həm şəhərlərimizdə kinoteatrlara üz tutub filmləri izlədiyimiz günləri, həm rayon mərkəzlərindəki kinoteatrlarda acgözlüklə seyr etdiyimiz filmləri. Uşaqlığımızdan xatirə qalan "Kəndə kino gəlib!"lə yaşadığımız gözəl anlar isə əsla unudulmayan anlardır. O anlardır ki, bu gün övladlarımıza ondan söhbət açanda sanki maraqlı bir film izləyirmişlər kimi bizi dinləyirlər. Belə isə, deməli, onların filmlərimizi izləməməsində biz özümüz günahkarıq.

Kəndə kino gəlib... Bu kinoları izləyənlər, o gözəl, səmimi mühitə şahid olan insanlar vaxt gələcək ki, həyatda olmayacaqlar. Kəndlərimizin kinolu, filmli günləri o xatirələrdə heç olmayıbmış kimi torpağa gömüləcək. Buna çox təəssüf edirəm.

***Mətanət Məmmədova***

# BÖYÜK QAYIDIŞIN QURUCULUQ PLANI - I Dövlət Proqramı

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirib ki, Böyük Qayıdış Proqramı uğurla icra edilir: "Bir neçə şəhərdə artıq inşaat işləri geniş vüsət almışdır. İlk növbədə Şuşa, eyni zamanda, Ağdam, Füzuli, Zəngilan, Laçın şəhərlərində geniş quruculuq işləri gedir, xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir". 10-dan çox kəndin Baş planının təsdiqləndiyini və bir neçə kəndin təməlini şəxsən qoyduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Bütövlükdə deməliyəm ki, azad edilmiş bütün şəhərlərimizin və qəsəbələrimizin Baş planları hazırlandı, təsdiqləndi. Bütün işlər Baş planlar əsasında gedəcək. Eyni zamanda, Böyük Qayıdış Proqramında bizim bütün planlarımız öz əksini tapıb və əminəm ki, yüz minlərlə keçmiş köçkün yaxın gələcəkdə öz doğma torpağına qayıdacaq".

## BÖYÜK DÖVLƏTLƏRİN BİR NEÇƏ İL ƏRZİNDƏ GÖRƏ BİLMƏDİKLƏRİ İŞLƏRİ AZƏRBAYCAN CƏMİ 2 İLDƏ REALLAŞDIRIB

Bu gün Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan layihələrə nəzər yetirsək görərik ki, bəlkə də, böyük dövlətlərin bir neçə il ərzində görə bilmədikləri işləri Azərbaycan cəmi 2 ildə reallaşdırıb. Hava limanları, yaşayış məntəqələri, avtomobil və dəmir yolları, körpülər, tunellər, su anbarları, elektrik enerjisi stansiyaları, içməli su xətləri və sosial-iqtisadi infrastrukturların yaradılması dünyanın diqqətini cəlb edir. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır. Elə bu məqsədlə də Prezident İlham Əliyev noyabrın 16-da "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.Sərəncamda göstərilir ki, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunub. Bu milli prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. Dövlət proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, proqramın prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Sənədin hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. Sənəddə, ilk növbədə, bütövlükdə Şərqi Zəngəzur və Qarabağın təhlükəsiz bir zonaya çevrilməsi hədəflənir ki, bu, həm də ciddi geosiyasi hadisə hesab olunmalıdır.



## "BÖYÜK QAYIDIŞ" PROQRAMININ STRATEJİ HƏDƏFLƏRİ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ ƏN YÜKSƏK HƏYATI TƏMİN ETMƏKDİR

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" 30 ildir doğma yurd həsrəti ilə yaşayan soydaşlarımızın layiqli şəkildə geri dönməsinin təmin edilməsi istiqamətində çox mühüm sənəddir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan özünün ən parlaq inkişaf dövrünü yaşayır və illər əvvəl xəyal kimi görünən arzularımız həqiqətə çevrilir. Torpaqlarımızın işğaldan azad edilməsi ilə başlanan yeni inkişaf mərhələsi bunun əyani sübutudur. Danılmaz faktdır ki, erməni barbarlığı nəticəsində 30 ilə yaxın müddətdə Azərbaycanın işğal olunmuş torpaqları olmazın vəhşiliklərə və ekoloji terrora məruz qalıb. Azərbaycanın şəhərləri və digər yaşayış məntəqələri, o cümlədən infrastruktur obyektləri tamamilə dağıdılmış, milli-mədəni irsimiz məhv edilmiş, zəngin yeraltı və yerüstü sərvətləri vəhşicəsinə talan edilmiş, iqtisadiyyata əhəmiyyətli zərər vurulmuşdur. Regionun meşə örtüyü məqsədli şəkildə məhv edilib, münbit torpaqları, su ehtiyatları ekoloji və radioaktiv çirklənməyə məruz qoyulub. Torpaqlarımızı işğal altında saxladığı illər ərzində erməni vandalları minaladıqları ərazilərdən başqa, rüsvaycasına təslim olduqdan sonra tərk etməleri üçün vaxt aldıqları zaman Ağdam, Kəlbəcər və Laçın rayonlarının bütün ərazilərinə yeni minalar basdırmaqla, yaşayış evlərini yandırmış, meyvə ağaclarını belə kəsmiş, terrorçu əməllərini davam etdirmişlər.

Bu gün isə 44 günlük müharibədə əldə etdiyimiz Böyük Qələbəmizin siyasi cəhətdən möhkəmləndirilməsi və işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması istiqamətində mühüm işlər görülür. 2026-cı ilədək başa çatması nəzərdə tutulan "Böyük Qayıdış" proqramının icrası ilə Qarabağda aparılacaq quruculuq işləri ölkəmizin həyatına çoxsaylı yeniliklər gətirəcək, keyfiyyətcə yeni bir həyata qayıdış olacaq. Bu gün Azərbaycan bir tərəfdən Qarabağda və Şərqi Zəngəzurda böyük bərpa və quruculuq işlərini həyata keçirir, digər tərəfdən əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sağlamlığının qorunması, ölkəmizin təhlükəsizliyinin təmin olunması, ordumuzun müdafiə qabiliyyətinin artırılması istiqamətində ciddi addımlar atır. Qarabağ ərazisi geniş tikinti meydanına çevrilib. Digər əsas prioritetlərdən biri də ərazilərin minalardan və digər hərbi sursatdan təmizlənməsi və dövlət sərhədlərin toxunulmazlığı məsələsidir ki, bu istiqamətdə də təxirəsalınmaz tədbirlər görülür. Göründüyü kimi, günümüzün reallığı deməyə əsas verir ki, regionda yaranan yeni şərait ölkəmiz və bölgə üçün yaxşı perspektivlər vəd edir və Prezident İlham Əliyevin vurğuladığı kimi, biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik. Və arzuları gerçəyə çevirəcək Böyük Qayıdışa dair I Dövlət Proqramında əks olunan hədəf, məqsəd və vəzifələrin icrası bölgədə məskunlaşacaq əhalinin layiqli həyat şəraitini təmin edəcək və bu nəzərdə tutulan tədbirlər strateji hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcəkdir. Bir sözlə, dövlət başçısının düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrası həm Azərbaycana böyük iqtisadi və siyasi dividendlər qazandıracaq, həm də dünya bir daha şahidi olacaq ki, Prezident İlham Əliyev hər zamankı kimi verdiyi vədləri uğurla gerçəkləşdirən qətiyyətli liderdir. Bu günün reallıqları isə bir daha göstərir ki, Azərbaycan düzgün yoldadır və uğurlu gələcəyə inamla addımlayır.

***RƏFİQƏ HÜSEYNOVA***

---

# Rusiyalı politoloq: "Avropanın siyasəti nizamlanmadakı vəziyyəti daha da gərginləşdirir"

Rusiya Sülh Təşəbbüsləri və Konfliktologiya İnstitutunun direktoru Denis Denisov Avropadakı ermənipərəst mövqe ilə bağlı "Caliber" analitik mərkəzinə açıqlamasında maraqlı məqamlara toxunub. Ekspertin fikirlərini oxucularımızın diqqətinə çatdırırıq.

"Avropa Parlamenti eyni anda bir neçə kresloda oturmağa çalışır. Bəzi Avropa strukturlarının fəaliyyəti ümumilikdə dünyada yaranan geosiyasi vəziyyətlə bağlıdır. Bu, ilk növbədə qlobal dünya platformasının yenidən formatlaşdırılmasıdır. Və burada, demək olar ki, hər gün avropalı parlamentarilər nəinki qərəzli, regionlarda və bütövlükdə dünyada baş verənlərin real mənzərəsini əks etdirməyən, həm də ümumilikdə aşağı dərəcəli qətnamələr kimi görünən tamamilə qəribə və anlaşılmaz saxta qətnamələr qəbul edirlər. Digər tərəfdən, bəzi istiqamətlərdə lobbiçilik edə bilən kifayət qədər güclü erməni diasporunu da unutmaq olmaz. Baxmayaraq ki, Azərbaycanda da eyni vəziyyət var. Ona görə



də təbii ki, bunun Azərbaycana qarşı yönəlmiş əsas istiqamət olduğunu deməzdim. Avropalıların axmaqlıqdan sonra səfehliyə də başlaması isə açıq-aşkar tendensiyadır",- rusiyalı politoloqun heç bir şübhəsi yoxdur.

D.Denisov onu da qeyd edib ki, Avropa Parlamentinin hazırkı tərkibində xristian həmrəyliyi ilə bağlı tendensiyalar demək olar ki, yoxdur: "Mən düşünmürəm ki, Avropadakı xristian qrupları islam qruplarına qarşı, hətta Ermənistan-Azərbaycan münaqişəsinin həlli kimi konkret və incə məsələdə birləşsinlər. Mən belə ilkin şərtlər görmürəm və ümid edirəm ki, bu, baş verməyəcək, çünki belə bir tendensiya daha bir çox ölkələrə və milyonlarla sadə insanlara təsir edəcək".

Azərbaycanı Qarabağın erməni əhalisinin hüquqlarını və təhlükəsizliyini təmin etməyə çağırması və eyni zamanda, ölkənin ərazi bütövlüyünü tanıması faktı D.Denisovun fikrincə, iki deyil, hətta birdən səkkiz stulda oturmağa çalışan bəzi Avropa strukturlarının mövqeyini xarakterizə edir: "Bir tərəfdən, BMT-nin, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi sənədləri tanımamaq düzgün deyil, digər tərəfdən isə öz siyasi mövqeyini bəyan etmək lazımdır. Beləliklə, sağlam düşüncə ilə heç bir əlaqəsi olmayan, eyni zamanda bəzi, çox vaxt çox qəribə mesajlar verən belə bir oksimoron ortaya çıxır. Bu, həm də təkcə Ermənistan-Azərbaycan qarşıdurması üçün xarakterik deyil".

D.Denisovun sözlərinə görə, bu cür qətnamələr və bəyannamələr Avropanın Cənubi Qafqazda mövcudluğunun dərəcəsini yüksəltmək istədiyindən xəbər verir: "Bir sıra Avropa siyasətçiləri və dövlətləri son altı ayda Qarabağ məsələsinin həlli prosesində potensial moderator kimi öz mövqelərini dəfələrlə bəyan ediblər, ancaq sonda bu, boş sözə çevrilib, heç nə baş verməyib, çünki real təklifləri, prosedura müsbət təsir edən konstruktiv xarakterli həlli heç kim təmin etmədi. Və burada, əlbəttə ki, prosesdə iştirakında israrlı olan Fransanın rolunu qeyd etmək lazımdır, amma sonda mənə elə gəlir ki, bu təşəbbüs yavaş-yavaş sönməkdədir".

Sülhməramlılara gəlincə, bu, politoloqun fikrincə, burda vəziyyət başqadır: "ATƏT sülhməramlılarının nədən ibarət olması mənim üçün böyük müəmmadır, çünki bu təşkilat çox nadir hallarda belə addımlarla şərəfləndirilə bilər. Biz müxtəlif konfliktlərdən bilirik ki, əslində ATƏT-in monitorinq, müşahidə missiyalarının işində, sülhməramlılığı demirəm, bir dənə də olsun müsbət, uğurlu halı yoxdur. Yəni belə bir təklif daha çox qəribədir. Təbliğat və mövqeləşdirmə baxımından bunu başa düşmək olar. Amma tətbiq olunan aspekt baxımından onun necə olması və necə fəaliyyət göstərməsi, təhlükəsizlik vəziyyətinin nə dərəcədə yaxşılaşdırmağın mümkün olacağı heç də aydın deyil. Təcrübə göstərir ki, bu, vəziyyəti daha da ağırlaşdıra bilər, çünki bu, sümük quruluşudur, yöndəmsizdir, məqsəd və vəzifələrini formalaşdıra bilmir. Və hətta onları formalaşdırsa da, siyasi vəziyyətə əsaslanaraq, nəzərdə tutulan məqsədləri həyata keçirmir. Əgər kimsə həqiqətən də ATƏT-in monitorinq missiyasını istəyirsə, o zaman başa düşməlidir ki, bu, vəziyyəti daha da gərginləşdirəcək", - deyə konfliktoloq deyib.

***Tərcümə - Elçin***

# Rusiya Avropanı Çinə necə dəyişdi?

**Qazaxıstan və Rusiyanın "Qazprom" şirkəti arasında qaz sənayesində əməkdaşlıq haqqında yol xəritəsi imzalanıb. Astana qaz nəqli sisteminin modernləşdirilməsində, respublikanın şimal və şərq rayonlarının qazlaşdırılmasında, Rusiya enerji daşıyıcılarının üçüncü ölkələrə nəqlinin həcminin artırılmasında maraqlıdır. Həmçinin Rusiya Federasiyası, Qazaxıstan və Özbəkistanın "qaz ittifaqı" formalaşdırdıqları barədə qəti fikir də söyləmək olar. Amma hər şey danışıqların hələ də davam etdiyi Daşkənddən asılıdır.**






Mərkəzi Asiyanın qaz hasil edən iki ölkəsi - Qazaxıstan və Özbəkistan bu qış daxili bazarda yanacaq qıtlığı ilə üzləşib. Özbəkistanın öz qazı kifayət qədərdir, qaz ehtiyatlarına görə regionda üçüncü yeri tutan Qazaxıstan isə Rusiya Federasiyasından yanacaq almağa məcburdur. Energetika naziri Bolat Akçulakovun sözlərinə görə, 4 milyard kub metr artıq, yəni bu il cəmi 10 milyard kubmetrə qədər qaz idxal ediləcək. Yanacaq sərfiyyatı artacaq. Bu, Alma-Ata İstilik Elektrik Stansiyalarının və bəzi sənaye müəssisələrinin qaza çevrilməsi, qazkimya komplekslərinin işə salınması və ümumiyyətlə, ölkənin qazlaşdırılması ilə bağlıdır. Bundan başqa, planlara respublikanın şimal və şərq rayonlarının qazlaşdırılması da daxildir.

Bundan əlavə, Qazaxıstanın ən azı 10 milyard kubmetr tədarük etməyə borclu olduğu Çinlə müqaviləsi təhlükə altındadır. Lakin "QazaqGaz"-ın İdarə Heyətinin sədri Sancar Jarkeşovun sözlərinə görə, qaz ixracı artıq 2023-cü ildə dayanacaq, çünki bütün yanacaq daxili tələbatı ödəməyə gedəcək.

Vəziyyəti üç dövlətin - Rusiya, Qazaxıstan və Özbəkistanın qaz ittifaqının yaradılması ilə düzələ bilər. Hər tərəfin öz maraqları var. Rusiya üçün qazını Avropadan Asiyaya yönləndirmək vacibdir. Bu halda Qazaxıstan və Özbəkistan tranzit ölkələr kimi çıxış edəcəklər. Astana və Daşkənd daxili bazarı ödəmək üçün çatışmayan yanacaq həcmlərini ala bilər. Lakin Rusiyadan asılılıqdan qorxan müttəfiqlər "Qazprom"un şərtlərinə görə indiyədək Rusiya prezidentinin təklifindən yayınıblar. Amma danışıqlar hələ də davam edir, artıq ilkin nəticələr var.

Yanvarın 18-də Sankt-Peterburqda "Qazprom"un baş direktoru Aleksey Miller və Qazaxıstanın baş nazirinin birinci müavini Roman Sklyar arasında işgüzar görüş keçirilib və nəticədə qaz sənayesində əməkdaşlıq üçün yol xəritəsi imzalanıb. Sənədin təfərrüatları verilməsə də, ekspertlər bunun hamının xeyrinə olacaq qaz birliyinin yaradılmasında ilk addım olduğunu deyirlər.

MDB Ölkələri İnstitutunun Mərkəzi Asiya və Qazaxıstan departamentinin rəhbəri Andrey Qrozin bildirib ki, Qazaxıstan və "Qazprom" arasında müqavilənin imzalanması, adətən üçtərəfli alyans adlandırılan böyük layihənin formalaşdırılması istiqamətində atılan addımlardan biridir. Beləliklə, Rusiya qərb istiqamətindən cənuba istiqamətləndiriləcək yeni enerji strategiyasını həyata keçirməyə başlayıb. Bu, artıq Rusiyanın yeni dövlət kursudur və göz qabağındadır ki, nə Astana, nə də Daşkənd bu layihədə iştirakdan imtina edə bilməyəcək. Mütəxəssislər bu əsrin ortalarına qədər Cənub-Şərqi Asiyanın əsas enerji istehlak edən bölgəyə çevriləcəyi ilə razılaşırlar. Qaz kəmərləri şəbəkəsinin indi nə qədər fantastik səslənsə də, Əfqanıstan, Pakistan, Hindistan və Çinə genişlənməsi tezliklə reallığa çevriləcək. Qrozin hesab edir ki, bu gün Rusiyanın xammalını cənub bazarlarına çıxarması qaçılmazdır və vacibdir.

Avrasiya məkanında mərkəzi mövqe tutan Qazaxıstan ancaq qazanc əldə edəcək. Nursultan Nazarbayevin Qazaxıstanı Şərqdən Qərbə ticarət axınları və enerji resursları üçün tranzit ərazi kimi tanıtması təsadüfi deyildi. Bu gün vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq, təkcə siyasi səbəblərə görə deyil, həm də sırf iqtisadi səbəblərə görə, respublika eyni, lakin əks istiqamətdə olan axının təşviqi üçün tranzit əraziyə çevriləcək. Gözümüzün önündə Qazaxıstanın da yerləşə biləcəyi maraqlı geoenerji mənzərəsi yaranır.

Mano Araşdırma Təşəbbüsləri Mərkəzinin direktoru Baxtiyor Erqaşev deyib ki, qaz birliyinin yaradılması ilə bağlı mövqeyi dəyişmiş Qazaxıstana baxan Özbəkistan da onu tutacaq. Özbəkistanda təsdiqlənmiş qaz ehtiyatları artmır. Bundan başqa, qaz hasilatının tədricən azalması qeydə alınıb. Eyni zamanda, əhali artır, təbii qaz istehlakına tələbat da artır və bu, uzunmüddətli tendensiyadır. Bu şərtlər daxilində Daşkənd qazla bağlı strateji qərar verməli olacaq. Özbəkistan artıq iki ildir ki, Türkmənistandan təbii qaz alır. Ancaq fakt budur ki, bu, çox şıltaq bir təchizatçıdır. Bundan əlavə, bütün türkmən qazı Çinə gedir ki, bu da Türkmənistan-Çin qaz kəmərinin dördüncü boru kəmərini tətbiq etmək üzrədir. Buna görə də Özbəkistan həmişə ikinci sırada olacaq. Özbəkistan üçün təbii qazın artırılması imkanları ilə yeni mənbələrin tapılması həyati əhəmiyyət kəsb edir. Özbəkistanda yeganə variantın Rusiya olduğunu düşünürlər.

Ekspertlərin fikrincə, Moskva Rusiya qazından asılılığını dərk edərək, öz şərtləri ilə əməkdaşlıq təklif edir. Xüsusilə, Daşkəndin Çinə qaz ixracı ilə bağlı öhdəliklərini götürün və bu həcmləri daxili ehtiyaclara yönəldin. "Qazprom" Özbəkistanın qaz nəqletmə sistemini ələ keçirməyə hazırdır, söhbət Mərkəzi Asiya-Mərkəz qaz kəmərinin Özbəkistan hissəsindən gedir. Daşkənd buna hazır deyil. Seçimlərdən biri ortaq mülkiyyət ola bilər. Bunun danışıqlar prosesində əngəl törədəcəyi gözlənilir. Amma Özbəkistanın qaza ehtiyacı var. Ona görə də Daşkənd danışıqlar aparacaq. Əhali ikinci belə qışdan sağ çıxmayacaq. Artıq indi ciddi sosial neqativ artım müşahidə olunur və qaz problemi həll olunmasa, son beş ildə aparılan islahatlar zamanı əldə edilən bütün nəticələr bərabərləşdirilə bilər.

Rusiyanın Postsovet Araşdırmaları Mərkəzinin baş elmi işçisi Stanislav Pritçin qeyd edib ki, əgər Astana və Daşkənd qaz ittifaqını geosiyasi prizmadan, Qərbin sanksiyaları altına düşmək qorxusu ilə nəzərdən keçirsələr, onda qaliblər olmayacaq. Belə mövqe özlüyündə əks-məhsuldardır, çünki o, əvvəlcə konflikt yaradır və birlik üzvlərinin öz maraqlarına zidd oynayır. Özbəkistanda ilin əvvəli göstərdi ki, ölkənin enerji təhlükəsizliyinin təminatçısı kimi çıxış etməyə hazır nə daxili resurslar, nə də xarici oyunçular var. Türkmənistan kiçik həcmdə sərbəst qaza malikdir, lakin fors-major rejimdə onlar dondurulur. Regionun enerji balanslarını qiymətləndirsək, istehlakdan çox olan Özbəkistanda yalnız Rusiya enerji mənbəyinə çevrilə bilər. Bunun üçün o, Özbəkistan ərazisindən keçməklə Çinə qaz ixrac etməli və respublikanın qazpaylayıcı sistemini balansa götürməlidir, xüsusən də "Qazprom" artıq Özbəkistana bağlı olan Qırğızıstanın qaz nəqli sistemini balansında saxlayır. . Müvafiq olaraq, Rusiya şirkətinə yerlərdə işləri genişləndirmək və əhaliyə qaz paylamaq üçün əlavə imkanlar yaradılır.

## Türkmən tranziti

Xəbər verildiyi kimi Rusiyanın baş naziri Mixail Mişustin Aşqabada işgüzar səfərdə olub və burada Türkmənistan-Rusiya forumu çərçivəsində ikitərəfli əməkdaşlığın əsas istiqamətlərini, xüsusən hazırda 1 milyard dollar dəyərində qiymətləndirilən ticarətin genişləndirilməsini qeyd edib. Bunun üçün həm Moskvanın, həm də Aşqabadın Türkmənistanın tranzit potensialını nəzərə alaraq logistikanın inkişaf etdirilməsi planına diqqət yetirilir. Xüsusilə, hakimiyyət Şimal-Cənub nəqliyyat dəhlizinin şərq marşrutunu tam gücü ilə işə salmağa, eləcə də yeni istiqamətlər və sənaye əməkdaşlığı vasitəsilə iqtisadi əməkdaşlığı şaxələndirməyə hazırlaşır.

Mixail Mişustinin postsovet məkanı ölkələrinə səfərləri, o cümlədən Türkmənistan səfəri və ötənilki Azərbaycan və Özbəkistan səfərlərindən də göründüyü kimi, işgüzar diqqəti cəmləşdirmək üçün sabit formata malikdir. Rusiya ilə iqtisadi əməkdaşlıq mövzusunda hökumət başçıları səviyyəsində ikitərəfli gündəmə onların ölkələrarası forumlarda iştirakı müşayiət olunur. Yanvarın 19-da da bu ssenari seçilib: Aşqabada gələn Mixail Mişustin Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Rəşid Meredovla birlikdə Türkmənistan-Rusiya biznes forumunun plenar iclasında çıxış edib.

Mixail Mişustinin qeyd etdiyi kimi, hazırkı "qeyri-standart şəraitdə" Moskva ilə Aşqabad arasında əməkdaşlığın qurulması üçün yeni imkanlar var: Türkmənistan biznesi Qərb şirkətlərinin geri çəkilməsi (sadələşdirmək üçün) hesabına Rusiya bazarında bəzi "boşalan" nişləri ala bilər. Baş nazir əmin edib ki, Rusiya hakimiyyəti Türkmənistandan gələn biznes nümayəndələri üçün gömrük nəzarətini və viza rejimini yumşaltmağa hazırdır. Sənaye və Ticarət Nazirliyinin rəis müavini Aleksey Qruzdevin sözlərinə görə, Rusiya şirkətləri Türkmənistan bazarına böyük maraq göstərirlər. İqtisadiyyat Nazirliyinin məlumatına görə, Rusiya biznesi hazırda Türkmənistanda dəyəri təxminən 3,5 milyard dollar olan 20 investisiya layihəsində iştirak edir.

Bununla belə, Mixail Mişustinin sözlərinə görə, iki ölkə arasında ticarət dövriyyəsi indiyədək kifayət qədər təvazökar görünür - təxminən 1 milyard dollar (2021-ci ilin sonunda 856 milyon dollar), lakin "potensial daha yüksəkdir". Moskva və Aşqabadın əsas iş sahəsi enerjidir, bununla əlaqədar artıq əməkdaşlığın şaxələndirilməsinin zəruriliyi barədə deyilib, Rusiyanın baş naziri aqrar-sənaye kompleksi və toxuculuq sənayesini hədəflər kimi qeyd edib. Qarşılıqlı ticarətin həcmini artırmaq üçün iqtisadiyyat naziri Maksim Reşetnikov qeyd edib ki, nəqliyyat və logistikanı da inkişaf etdirmək lazımdır - onlar üçün əsas Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin şərq marşrutudur.

Onun üzərindəki xəttin sınaq buraxılışı göstərdi ki, yüklər ənənəvi dəniz marşrutundan üç gün tez çatdırılır. İndi layihə tam gücü ilə həyata keçirilir. Bu istiqamətin əhəmiyyəti yanvarın 19-da Türkmənistanın tranzit imkanları ilə bağlı da qeyd olunub. Rəşid Meredovun sözlərinə görə, ölkə ərazisindən tranzit həcmləri dəqiqləşdirmədən üç dəfə artıb.

Qeyd edək ki, Türkmənənistanın xarici işlər naziri Türkiyə-Azərbaycan-Türkmənistan sammiti öncəsi Rusiyaya səfər edib.

Rusiya Federasiyası Türkmənistanı çoxtərəfli formatlara, xüsusilə Avrasiya İqtisadi İttifaqına (Aİİ) cəlb etməkdə maraqlıdır. Türkmənistan hakimiyyətinin nümayəndələri dəfələrlə "beşlik"in görüşlərinə qonaq qismində dəvət olunublar. Rusiya baş nazirinin sözlərinə görə, Moskva Aşqabadın "Aİİ ilə əməkdaşlığı öyrənmək"də maraqlı olduğunu görür və bunun "müsbət təsir göstərəcəyinə" inanır. Ölkə iqtisadiyyatı və beş ölkə hər kəs üçün faydalı olacaq. Maksim Reşetnikovun dediyi kimi, Türkmənistan Aİİ-də müşahidəçi statusu ala bilər. Hazırda Özbəkistan, Moldova və Kuba bu statusdadırlar. Lakin Rusiya tərəfinin bu cür bəyanatları Aşqabadın açıq bəyanatları ilə müşayiət olunmur.

**V.VƏLİYEV**

# Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın xüsusi payı var

"Davos iqtisadi forumunun hər il keçirilən illik toplantısında iştirak etmək üçün Azərbaycan Prezidenti cənab İlham Əliyev İsveçrə Konfederasiyasına səfər edib. Bu ilki forum "Fraqmentasiya olmuş dünyada əməkdaşlıq" mövzusunda keçirilib. Covid-19 pandemiyasından sonra baş tutan forumda dünyanın 130-dan çox ölkəsində 2700-dən çox siyasət, elm və media mənsubları toplaşıblar". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.



Onun sözlərinə görə, BMT-nin baş katibi, Avropa Komissiyasının Prezidenti, NATO-nun baş katibi, o cümlədən 52 dövlət və hökumət başçısı, 700-dən çox təşkilat rəhbəri, dünyanın ən nüfuzlu 600-dən artıq şirkət rəhbərləri iştirak edib: "Belə bir böyük iqtisadi forumda Azərbaycan Prezidentinin dəvət alması ölkəmizə verilən yüksək qiymətdir və son illərdə Azərbaycanın dünyada qazandığı böyük siyasi, iqtisadi nüfuzdur. Artıq Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın xüsusi payı var və buna görə də Avropa daim Azərbaycanla sıx əməkdaşlıq edir. Həm də yaxşı tərəfdaş kimi birgə layihələrdə çalışırlar.

Bu iqtisadi forumun gündəliyində əsas məsələlər enerji, iqlim və təbiət üçün yeni sistem kontekstində mövcud enerji və ərzaq böhranının həll edilməsi olub. Qlobal iqtisadi böhran çərçivəsində iş yerlərinin bağlanması, məşğulluğun azalması, sosial problemlərin artması da bu forum çərçivəsində müzakirə olunub.

Cənab Prezident hər il keçirilən Davos iqtisadi forumunda dünyanın nəhəng siyasi elitasının diqqət mərkəzində olur. Eyni zamanda Cənab Prezident İlham Əliyevin iştirak etdiyi sessiyalar Davosda ən yadda qalan tədbir kimi foruma öz töhvəsini verdi".

**Səbinə Hüseynli**

# Bərpaolunan enerjidən səmərəli istifadə prioritetdir



*Nihad Pənahov*
*YAP Tovuz rayon təşkilatının sədri*



Ənənəvi olaraq hər il İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumu iştirakçı ölkələrin, o cümlədən Azərbaycanın malik olduğu iqtisadi imkanların təqdimatında mühüm rola malikdir. Bir mühüm məqamı da nəzərə alsaq ki hər dövrün öz çağırışları olur, Dünya İqtisadi Forumu günün aktual məsələlərinin müzakirəsinə xüsusi önəm verir, bu halda builki toplantının mövzusu diqqətdən kənarda qala bilməz. Dövlət başçısı İlham Əliyev Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibəsində Forumun bu il müzakirəyə çıxardığı ”Parçalanmış dünyada əməkdaşlıq” mövzusunun fonunda hazırkı dövrdə əməkdaşlığı çətinləşdirən məqamlara diqqəti yönəltdi: ”Düşünürəm ki, bəzi ölkələrin ambisiyaları, regionda və ya dünyada bir növ liderlik uğrunda mübarizə, potensialın, öz potensialının düzgün hesablanmaması, qarşınızdakının, opponentinizin olduğundan aşağı qiymətləndirilməsi. Bu, etimadsızlığa, gərginliyə və müharibələrə gətirib çıxarır. Bizim siyasətimiz hər zaman, sözün əsl mənasında, əməkdaşlığa əsaslanıb, çünki biz qəti surətdə inanırıq ki, yalnız əməkdaşlıq sayəsində uğur qazana bilərsiniz. Nə qədər çox versəniz, nə qədər çox yardım etsəniz, bir o qədər çox əldə edəcəksiniz. Dünya bunun üzərində qurulub.” Dünya İqtisadi Forumu çərçivəsində keçirilən çoxsaylı görüşlərdə, dövlət başçısı İlham Əliyevin çıxış etdiyi panel iclaslarda da Azərbaycanın hazırkı iqtisadi uğurlarının əldə olunmasını şərtləndirən amillər xüsusi diqqətə çatdırıldı. Əsas amil kimi ölkəmizin malik olduğu əlverişli biznes mühiti xüsusi qeyd edildi. Bu əsas hədəf bir daha diqqətə çatdırıldı ki, bərpaolunan enerji mənbələri bizim üçün indi əsas prioritetlərdən birinə çevrilib. Son bir neçə ay ərzində Azərbaycan 22 qiqavat bərpaolunan enerji mənbələrini yaratmaq üçün sərmayə təmin edəcək sənədlər imzalayıb. Söhbət həm dənizdən, həm də qurudan gedir. Bu isə regional iqtisadi konfiqurasiyanı tamamilə dəyişəcək. Çünki Avropada baş verən yaşıl enerjiyə keçiddən xəbərimiz var. Eyni zamanda, Azərbaycan neft və təbii qazın təchizatçısıdır. İndi yaşıl enerjini, o cümlədən dənizdə külək elektrik stansiyalarından hasil olunacaq yaşıl hidrogeni təchiz etməyi planlaşdırırıq: ”Biz ixrac etmək imkanına malik olmaq üçün həm də ötürücü xətlərə də sərmayə yatırmalıyıq, çünki bizim özümüzə bu qədər enerji lazım deyil.” Dünya İqtisadi Forumundan öncə ölkə Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri zamanı bərpaolunan enerji məsələləri ilə bağlı razılaşmalar əldə olundu. Dövlət başçısı İlham Əliyev Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində Azərbaycanın enerji sektorunda qazandığı uğurlardan geniş bəhs etdi. Ölkəmizin neft və qazla yanaşı, elektrik enerjisi ixracatçısı olduğu xüsusi vurğulandı. Qeyd edildi ki, cəmi iki il əvvəl Azərbaycan Cənub Qaz Dəhlizi meqa enerji layihəsini öz tərəfdaşları ilə başa çatdırıb. Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş boru kəmərləri sistemini qurub. Həmin boru kəmərinin uzunluğu 3500 kilometrdir. Təbii qaz ixracımız artır. 2021-ci ildə 19 milyard kubmetr idisə, bu il 24 milyard kubmetrə çatacaq. Artım davam edəcək. Azərbaycanın bərpaolunan enerji mərkəzlərindən birinə çevrilməsi planı təkcə öz enerji təhlükəsizliyi ilə Bu rəqəmlər də açıqlandı ki, quruda 27 qiqavatlıq külək və günəş enerjisi, 2020-ci ildə Vətən müharibəsi zamanı azad edilmiş ərazilərdə 10 qiqavatlıq külək və günəş enerjisi, həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. 200 qiqavata yaxın potensial var. Bu səbəbdən Azərbaycana kifayət qədər ixrac marşrutları lazımdır. Dövlət başçısı İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri zamanı ”Masdar” və Azərbaycan Dövlət Neft Şirkəti 4 qiqavatlıq külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair razılaşma imzaladılar. Bu qısamüddətli bir layihədir. Ortamüddətli layihələr nəticəsində güclər 10 qiqavata qədər artırılacaq. ”Masdar” ilə aparılan əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcək. Yeni imkanlara gəldikdə isə Azərbaycanın beynəlxalq enerji şirkətləri ilə imzaladığı Anlaşma Memorandumları və sazişlər 22 qiqavata qədər külək və günəş enerjisini istehsal etmək imkanını yaradacaq. Göründüyü kimi, hazırda dünya iqtisadiyyatının davamlı inkişafında bərpaolunan enerjidən səmərəli istifadə məsələsi ön planda dayanır. Bu baxımdan Azərbaycanın gördüyü işlər nəinki ölkəmiz, eyni zamanda, region və dünya üçün əhəmiyyətlidir.



## “Avropa parlamentinin ermənipərəst qətnamələrinə adət etmişik”

“Avropa parlamenti bir neçə gün əvvəl öz ”şakərinə” sadiq qalaraq yenə də Azərbaycan əleyhinə qətnamə qəbul edib. Laçın koridoru və Qarabağın ”blokadası” məsələsi üzrə qəbul olunduğu iddia olunan qətnamədə tələb olunur ki, Azərbaycan Qarabağı Ermənistanla birləşdirən yeganə yolun açıq olmasını təmin etsin”. Bunu ”Səs” qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, bu ”mötəbər” sənəddə rus sülhməramlılarının ”blokada”nın qarşısını almaq sahəsində öz vəzifələrinin öhdəsindən gəlmədiyi qeyd olunur və BMT-dən və ATƏT-dən bölgəyə fakt toplayıcı missiyanın göndərilməsi tələb edilir: ”Avropa parlamentinin bu cür ermənipərəst qətnamələrinə adət etdiyimizdən təbii ki, 19 yanvar 2023-cü il qətnaməsinə də təəccüblənmədik. Məsələnin mahiyyətini aydınlaşdırmadan, ”Moskvanın provokatoru” Ruben Vardanyanın Qarabağdakı bir neçə mədəndə Azərbaycan tərəfindən monitorinq aparmaq barədə 3 dekabr 2022-ci il razılaşmasını pozması qeyd olunmadan yenə də Azərbaycan günahlandırılır və bizə qarşı ”tələblər” irəli sürülür. Güman edirəm ki, bu ədalətsiz davranış dövlətimiz tərəfindən nəzərə alınmayacaq və Qarabağda Azərbaycanın suverenliyinin təmin olunması istiqamətində bundan sonra da ardıcıl addımlar atılacaq. Ruben Vardanyanı və onun başına toplaşanları da ən çox narahat edən bu məsələdir. Onlar Praqada və Soçidə əldə olunmuş razılaşmanın icra olunmasını qətiyyən istəmirlər. Ancaq onu da dərk edirlər ki, bu prosesin qarşısını almaq şansları qətiyyən yoxdur. Bu səbəbdən Azərbaycanın Qarabağ üzərindəki suverenliyinin təmin olunmasını mümkün qədər ləngitmək istəyirlər. Çox təəssüf ki, Avropa parlamenti kimi qurumlar da bu destruktiv fəaliyyətdə ermənilərə yardımçı olmaqda davam edirlər”.

***Gülyana***

# “CityNet” yeni internet saytını istifadəyə verdi




Abunəçilərinə təqdim etdiyi yüksək sürətli internet və keyfiyyətli TV xidməti ilə daima fərqlənən ”CityNet” internet provayderi yeni rəsmi internet saytını istifadəyə təqdim edib.”CityNet”in yeni internet saytı müasir dizaynı, funksionallığı, asan naviqasiyanı, eləcə də sayt vasitəsilə xidmətlərə görə onlayn odəniş sistemini özündə cəmləşdirir. Daima abunəçilərinin rahatlığını düşünən ”CityNet” yeni internet saytı üzərindən xidmətlərə asanlıqla qoşulmaq üçün müraciət imkanını da təqdim edir. Müraciət üçün hər hansı bir sənədə ehtiyac yoxdur.

Yeni intenet saytında istifadəçilər şirkətin xidmətlərini, tariflərini və son xəbərlərini asanlıqla izləyə bilər, həmçinin onları maraqlandıran müxtəlif suallara tez-tez verilən suallar bölməsindən rahatlıqla cavab tapa bilərlər.

”CityNet” yüksək sürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətləri təqdim edən və daim inkişaf edən internet provayderidir. Quraşdırılma xidməti abunəçilərə 24 saat ərzində təqdim edilir. Qoşulma şərtləri, yeni və mövcud tariflər, kampaniyalar, həmçinin texniki dəstək üçün *1177 və (012) 5377777 nömrələri ilə əlaqə saxlamaq mümkündür. Xidmətin hər hansı ünvanda mövcudluğunu şirkətin veb saytından və ya müştəri xidmətlərinə müraciət etməklə yoxlamaq olar. Daha ətraflı məlumatı www.citynet.az rəsmi internet saytına keçid edib əldə etmək mümkündür.

# "Siyasi partiyalar haqqında" yeni Qanun: uğurlu siyasi islahatların sübutu

## Qanunun qəbulu bu istiqamətdə mütərəqqi, yeni addımların atılmasına və ölkəmizdə daha da güclü, qüvvətli, demokratik cəmiyyətinin formalaşmasına böyük bir töhfə verəcəkdir

ŞƏRH

Hər dövrün yeni tələbləri olduğu üçün islahatlar prosesi qaçılmazdır. Bu gün geniş müzakirə edilən yeni "Siyasi partiyalar haqqında" Qanun da dövrün tələblərini özündə ehtiva edir. Qanunun qəbul edilməsini şərtləndirən amillər geniş təhlil olunur. Ölkəmizdə demokratik



*Kamil Qurbanov, YAP Biləsuvar rayon təşkilatının sədri*

cəmiyyətin varlığını təsdiqləyən bütün amillər bərqərar olunub ki, bunlardan da biri çoxpartiyalı sistemin yaradılmasıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təməlini qoymuş olduğu islahatlar siyasətinin davamı kimi "Siyasi partiyalar haqqında" Qanunun qəbulu bu istiqamətdə mütərəqqi, yeni addımların atılmasına və ölkəmizdə daha da güclü, qüvvətli, demokratik cəmiyyətinin formalaşmasına böyük bir töhfə verəcəkdir.

### Belə bir vaxtda "Siyasi partiyalar haqqında" yeni Qanunun qəbul edilməsi təqdirəlayiq addımdır

Artıq bir neçə ildir ki, ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar artıq həyatın bütün sahələrində özünü açıq şəkildə büruzə verir. Bu islahatlar ölkəmizi yeni inkişaf mərhələsinə çıxarıb, Azərbaycanın dünya birliyindəki mövqeyini daha da möhkəmləndirib. İqtisadi, sosial, kadr sahəsində həyata keçirilən islahatlar nəticəsində bütün sahələrdə qazanılan uğurlar özünü açıq şəkildə büruzə verir. Hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Ona görə də siyasi sahədə də islahatlarda zərurət yaranıb. Belə bir vaxtda "Siyasi partiyalar haqqında" yeni Qanunun qəbul edilməsi təqdirə layiq addımdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Siyasi partiyalar haqqında" yeni qanunun qəbul edilməsi zamanın tələbidir və Azərbaycanda dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, siyasi proseslərin düzgün tənzimlənməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

### Sözügedən Qanun qəbul etdiyi dövrün reallıqlarına tam cavab versə də ötən 30 ildə ölkəmizin böyük uğurlu yol keçdiyi göz önündədir

Məlum olduğu kimi, hazırkı "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu 30 il bundan əvvəl - 1992-ci il 3 iyun tarixində qəbul edilmişdi. Bu qanun müasir dövlətimizin, cəmiyyətimizin inkişafına adekvat olmadığından siyasi partiyaların fəaliyyətinin daha yüksək səviyyədə qurulmasında, genişlənməsində ciddi maneələr yaradırdı.






Sözügedən Qanun qəbul etdiyi dövrün reallıqlarına tam cavab versə də ötən 30 ildə ölkəmizin böyük uğurlu yol keçdiyi göz önündədir. Bu uğurlar "Siyasi partiyalar haqqında" qanunun qəbul olunduğu 1992-ci ildən bu günədək sənədə 27 dəfə əlavə və dəyişikliyin edilməsində özünün aydın ifadəsini tapıb. Artıq yeni Qanunun qəbuluna zərurət yarandı.

"Siyasi partiyalar haqqında" Qanun layihəsinin hazırlanması zamanı Venesiya Komissiyasının 2010-cu ildə qəbul etdiyi "Siyasi partiyaların fəaliyyətinin hüquqi tənzimlənməsi barədə vəziyyət", 24 ölkənin təcrübəsi (Almaniya, ABŞ, Fransa, İsveç, İspaniya, Niderland, İtaliya, Avstriya, Türkiyə, Polşa, Bolqarıstan, Çexiya, Macarıstan, Latviya, Litva, Estoniya, Rusiya, Gürcüstan, Qazaxıstan, Ukrayna, Belarus, Tacikistan, Özbəkistan və Ermənistan) nəzərdən keçirilib. Ölkədə fəaliyyət göstərən partiyalardan 47-si Milli Məclisə yazılı formada 250-dən çox təklif təqdim etmişdir.

### Artıq Azərbaycandakı siyasi mühit 30 ilki dövrdən tamamilə fərqlidir

Təsadüfi deyil ki, qanun layihəsi hazırlanarkən dünyanın qabaqcıl ölkələrinin təcrübəsi öyrənilib, Azərbaycanın siyasi sisteminin və milli xüsusiyyətlərinin, bununla yanaşı, Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi haqqında tövsiyələri də nəzərə alınıb. Yenilənmiş layihədə sənədlərin toplanması ilə bağlı müddət artırılıb, partiyanın təsis edilməsi, qeydiyyatı, sənədlərin yoxlanılması ilə bağlı rəqəmlər isə azaldılıb.

Artıq Azərbaycandakı siyasi mühit 30 ilki dövrdən tamamilə fərqlidir. Hazırda ölkəmiz dünyada söz sahibinə çevrilmiş, sürətlə inkişaf edən dövlətə çevrilmişdir.

Onu da qeyd edə bilərik ki, "Siyasi partiyalar haqqında" yeni Qanunda diqqət çəkən biri-birindən əhəmiyyətli məqamlar var ki, onların hamısı ümumilikdə partiyaların normal fəaliyyətinə geniş imkanlar yaradacaq. Siyasi partiyaların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar davamlılığı ilə diqqət çəkir və beləliklə, Azərbaycanda siyasi sistemdə həyata keçirilən islahatlar reallıqların növbəti təzahürü hesab edilməlidir. Bu nöqteyi nəzərdən "Siyasi Partiyalar haqqında" yeni qanun ölkədə formalaşan siyasi prosesləri, yeni çağırışları, dünyada baş verən tendensiyaları özündə ehtiva etməklə kamil bir qanunvericilik aktıdır.

---



# Avropa Parlamenti, öyrənməyə ehtiyacın var

**MƏTANƏT**

Avropa Parlamentinin 18 yanvar tarixində qəbul etdiyi qətnaməsinə əsasən üz tutub həmin parlamentin gəlməyə, görməyə, öyrənməyə, sonra danışmağa ehtiyacı olan üzvlərinə deyirəm ki, siz hökmən gəlməlisiniz, 30 ildə gəlmədiniz, barı bir zəhmət, isti kreslonuzdan qalxın, gəlin Qarabağa. Görünür, orada öyrənməyə çətinlik çəkdiniz, ya da öyrənmək istəmədiniz. Lakin artıq nə Azərbaycan, nə Ermənistan, nə müasir dünya, nə də ki, siz-Avropa Parlamenti 30 ildəkilər deyil. Dəyişən çox şeylər var. Ona görə də sizin də öyrənməyə böyük ehtiyacınız var.

Məsələn, bu fikirdəsiniz ki, guya Azərbaycan Ermənistana hərbi təcavüz edib. Lakin bu, əsla düşündüyünüz kimi deyil. Çünki Azərbaycanın Ermənistana hərbi təcavüz etməyə ehtiyacı yoxdur. 44 günlük müharibədə Azərbaycan Ermənistanın 30 illik haqsızlığına qarşı döyüşüb, torpaqlarını geri alıb, bədxah qonşunu da yerində oturdub. Zəhmət olmasa, tarixi öyrənin, sonra danışın.

Deyirsiniz ki, Laçın yolu azərbaycanlılar tərəfindən blokadaya alınıb. Sual olunur, nə üçün? Laçının, Laçın yolunun kimə məxsus olduğunu məncə gözəl bilirsiniz. Zəhmət olmasa, bir də etiraf etməyə çalışın. Onda görəcəksiniz ki, Azərbaycan öz ərazisində niyə blokada yaratsın?

Avropa Parlamenti, Ermənistanın ərazi bütövlüyündən söhbət açanda, artıq böyük təəssüf hissi doğurursunuz. Çünki məhz bu ifadələr özünü sanballı bir təşkilat bilməyə davam edən Avropa Parlamentinin sözsüz, öyrənməyə böyük ehtiyacını ortaya qoyur. Sual olunur, Ermənistanın ərazi bütövlüyünə kim xələl gətirib? Bəlkə Ermənistanın Baş naziri Nikol Paşinyan kimi siz də çaşırsınız? Necə ki, Nikol "Qarabağ Ermənistandır" demək istədiyi təqdirdə, Qarabağ Azərbaycandır həqiqətini ifadə etdi, deyəsən siz də Azərbaycanın ərazi bütövlüyündən danışmaq istədiyiniz təqdirdə, necə olubsa ağzınızdan Ermənistan çıxıb?

Biz əvvəllər elə bilirdik ki, Avropa Parlamenti ədalətli bir qurumdur. Və ümid edirdik ki, bu qurum Ermənistan-Azərbaycan problemlərinin çözülməsində bir işə yarıyacaq. Lakin sonralar bunun əksini gördük. İndi isə bu qurumun hansı səbəbdən, nə üçün və niyə Ermənistanın tərəfində olduğunu görürük. Və görürük ki, AP erməni sevdasından hətta tarixlərin, hadisələrin də yerini dəyişik salır. Ona görə də öyrənməyə ehtiyacı var ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü pozub. 30 il Azərbaycan torpaqları işğal altında qalıb. 30 il bu torpaqların sahibləri məcburi köçkünlərə çevrilib dədə-baba yurdlarını tərk edib və həsrətli, hicranlı bir həyat yaşamağa məcbur olublar. 30 il Ermənistan Azərbaycan torpaqlarını talan edib, sərvətlərini dünya bazarına çıxarıb satıb sovurub. 30 il sonra ağ bayraq qaldırıb müharibədə məğlub olduğunu bəyan edəndən sonra isə Azərbaycan ərazilərində yenə də özlərini apara bilmirlər.

Məlumdur, bunları siz belə pis tərbiyə etmişiniz. Onların qulaqlarına oxuduğunuz havalardır onları oynadan. Yoxsa başqasının torpağında özlərini necə aparmağı yaxşı bilərdilər.

Lakin siz-Avropa Parlamenti də artıq bilməyə çalışın ki, haqq nədir, nahaq nədir. Çünki ən azından Allah qarşısında cavab verəcəyiniz bir gün olacaq. Həmin gün Allahın qəza-qədərinə düçar olmamaq üçün öyrənin ki, Qarabağ Azərbaycan ərazisidir. Burada yaşamaq istəyən ermənilər Azərbaycanın qoyduğu qayda-qanuna tabe olmalıdırlar. Öyrənin ki, Ermənistan Azərbaycan torpaqlarında hələ də talançılığı davam etdirir. Bunun üçün də düz 43 gündür ki, azərbaycanlı ekofeallar aksiya keçirirlər. Həm də qışın bu şaxtalı günlərində. Öyrənin ki, Ermənistan 10 noyabr Bəyannaməsinə görə hələ də üzərinə düşən öhdəlikləri yerinə yetirmək istəmir. Bunu da bilin ki, Azərbaycan nəyi nə vaxt edəcəyini yaxşı bilir və kimin təsirindən asılı olmayaraq həmin Bəyannamədə nəzərdə tutulanların hər birinin yerinə yetirilməsinə nail olacaq.

# İnsanlar və heyvanlar bir-birini hansı xəstəliklərə yoluxdura bilər?



**Bu günə qədər heyvanlardan insanlara keçən xəstəliklər gündəmdə idi. Bu səbəblə də pandemiya zamanı bir çox ev heyvanı koronavirus ötürdüyü iddiası ilə küçəyə atıldı. Amma bu dəfə elm dünyası "Biz insanlar heyvanları xəstə edə bilərikmi?" sualını verir.**

SİA mövzu ilə bağlı araşdırma aparıb.

İnsanların, heyvanların və xəstəliklərin hər zamankından daha çox iç-içə olduğunu ifadə edən Doğum və Ginekologiya Mütəxəssisi Baytar Həkim Dr. Murat Akbaş insandan heyvanlara keçən xəstəliklərlə bağlı bu məlumat verib: "Antarktidadan başqa bütün qitələrdə bakteriya, virus, parazit və göbələklərin insanlardan heyvanlara keçməsi halları aşkar edilib. Anoreksiya, qusma və davamlı öskürək ilə Tennessi Universiteti Baytarlıq Kollecinə gələn üç yaşlı Yorkshire teryerini xilas etmək mümkün olmayıb. Ölümdən sonra da daxil olmaqla bir sıra testlərdən sonra heyvanın vərəm xəstəliyinə tutulduğu qənaətinə gəlinib. İtin sahibi 6 ay idi vərəmdən müalicə alırdı. Bu vərəmin insandan itə ötürülməsi sənədləşdirilmiş ilk hadisə idi.

Pişiklər də vərəmə həssasdırlar, lakin onlar ən çox iribuynuzlu heyvanların vərəminə və ya daha nadir hallarda xəstəliyin quş yolu ilə ötürülən versiyasına yoluxurlar. İnsan tərəfindən törədilən vərəmdən təsirlənən yeganə heyvan itlər deyil. İllinoys ştatın-



dakı ekzotik heyvan ferması fillərin insanlardan vərəmə yoluxması ilə bağlı bir sıra sənədləşdirilmiş hallar görüb.

2009-cu ildə Oreqon ştatında H1N1 qrip virusunun insandan pişikə ötürülməsi ilə nəticələnən ölümcül bir hadisə qeydə alınıb. Pişiyin sahibi ağır qripə yoluxub və xəstəxanaya aparılıb. Onun pişiyi digər insanlar və ya heyvanlarla eyni mühitdə olmayan ev pişiyi idi və sonradan H1N1 infeksiyasının səbəb olduğu pnevmoniyadan öldü.

2011-2012-ci illərdə tədqiqatçılar 13-dən çox pişik və bir itin H1N1 pandemik



infeksiyası ilə təmasda olduğu ortaya çıxdı. Maraqlıdır ki, heyvanların simptomları sürətlə irəliləyərək tənəffüs xəstəlikləri, iştahsızlıq və bəzi hallarda ölümlə nəticələnən insan daşıyıcılarının yaşadığı simptomlara bənzəyirdi.

Qorillalar və şimpanzelər oxşar genetik və fizioloji quruluşları sayəsində bəlkə də insan xəstəliklərinə çox həssasdırlar. Onların qızılca, pnevmoniya, qrip, müxtəlif viruslar, bakteriya və parazitlər də daxil olmaqla bir sıra insan xəstəliklərinə qarşı həssas olduqları bilinir. Yaşayış yerlərinin itirilməsi, vəhşi təbiət parkları, zooparklar və vəhşi heyvanların ovlanması səbəbindən insanlar primatlarla daha tez-tez yaxınlaşırlar. Buna görə də xəstəliklərin növlər arası ötürülməsi aktual problemə çevrilir.

2003, 2005 və 2006-cı illərdə Tanzaniyanın Mahale Dağları Milli Parkında vəhşi şimpanzelərdə ölümcül tənəffüs yoluxucu xəstəliklərin yayılması baş verdi. Həm qızılca, həm də qrip kimi hallar nəzərə alınsa da, onları səbəb kimi təsdiqləyən heç bir dəlil tapılmadı. Tədqiqatçılar təsirlənmiş və təsirlənməmiş şəxslərin nəcis nümunələrini təhlil etdilər və günahkarın insan tərəfindən hazırlanmış metapnevmovirus (yuxarı tənəffüs yollarının infeksiyasına səbəb olan virus) olduğunu müəyyən etdilər.

Bu azalan şimpanze populyasiyası in-



sanlar tərəfindən onlara ötürülən soyuqla məhv edilir. Eynilə, 2009-cu ildə Çikaqoda insan metapnevmovirus infeksiyasının baş verməsi yoluxmuş heyvan baxıcılarından bir qrup əsir şimpanzeyə yayıldı. Nəticədə yeddi nəfər xəstələndi, biri öldü.

Afrika xallı vəhşi itləri nəsli kəsilməkdə olan vəhşi it cinsidir. Qoruma səylərinin bir hissəsi olaraq, 2010-cu ildə nəşr olunan bir araşdırma, növlərin nəcislərində tapılan parazitləri araşdırdı. Nazik bağırsaqda yaşayan parazit olan Giardia duodenalis infeksiyasına vəhşi heyvanların 26 faizində, əsirlikdə olan heyvanların isə 62 faizində rast gəlinib.

G. duodenalis ev pişiklərində və itlərində çox rast gəlinsə də, Afrika xallı itlərdə təbii yolla rast gəlinən parazit deyil. Bundan əlavə, it nəcisində aşkar edilən parazit növləri, adətən ev itlərində görülən alt tip deyil, insanlarla əlaqəli alt tip idi. Bununla belə, xəstəliyin simptomları arasında ishal, ürəkbulanma, qarında narahatlıq və iştahanın azalması daxildir".



Bəs, heyvanlardan insanlara hansı xəstəliklər keçir?

Heyvanlardan insanlara keçə bilən xəstəliklərə zoonoz xəstəliklər deyilir. Bu xəstəliklərə bakteriyalar, göbələklər, viruslar,



protozoa və helmintlər səbəb olur.

Ciddi zoonoz xəstəliklər bunlardır: Quduzluq, Exinokokkoz (Echinococcus granulosus), Vərəm, Brusellyoz, Listerioz, Leptospiroz, Mal-qara süngər beyin xəstəliyi (BSE), Qarayara (Siyah yarası), Taenia saginata-cysticercus bovis, Salmonellyoz, Leyxoplazma.

**Mal-qara süngər beyin xəstəliyi (BSE):**

Əlamətlər: Prionlar adlanan degenerasiya olunmuş zülallar. İnsanlara ötürülmə yoluxmuş heyvan ətini yemək və ya prionlarla çirklənmiş yoluxmuş toxumaların insan orqanizminə birbaşa təması nəticəsində baş verir. Beyin toxuması süngər olur. Müalicəsi yoxdur.

Mühafizə üsulu: Xəstə heyvanlar məhv edilməli və istehlak edilməməlidir.

**Quduzluq:**

Səbəb: Bu rabdovirus ailəsindən olan bir virusdur. Bütün istiqanlı heyvanlarda rast gəlinən ölümcül xəstəlikdir. Xəstəliyin inkubasiya müddəti orta hesabla 3-8 həftədir, lakin dişləmə yerindən asılı olaraq daha qısa və ya uzun ola bilər. İnsanlara yoluxma quduz dişləməsi ilə baş verir. heyvan, konyunktiva və selikli qişalarla, tüpürcək isə açıq yaralarla təmasda olur. Birinci mərhələdə tənəffüs sisteminin əzələlərinin iflic olması ilə baş verir.

ARAŞDIRMA

*Ardı Səh. 13*

# İnsanlar və heyvanlar bir-birini hansı xəstəliklərə yoluxdura bilər?

Əvvəli Səh. 12

Qarşısının alınması üsulu: Pişik və it kimi ev heyvanlarının illik peyvəndlənməsi. Dişlənilən insanlar ən qısa zamanda səhiyyə müəssisə və təşkilatlarına müraciət etməli və quduzluq peyvəndi olmalıdırlar. Dişləyən heyvan quduzluğa qarşı müayinə olunmaq üçün karantinə alınır.

### Exinokokkoz (HİDATİK KİST):

Səbəb: Yetkinlər itlərin bağırsaqlarında yaşayan "Echinococcus granulosus" adlı parazitin sürfələridir. Bir növ tape qurddur və onun sahibləri ot yeyən heyvanlarla yanaşı insanlarda da ola bilər. Bütün orqanlarda, xüsusən də bağırsaqlarda hidatik kistalara səbəb olur.




Qarşısının alınması üsulu: Pişik və itlərə mütəmadi olaraq müvafiq antihelmintik dərmanlar vurulmalı, tərəvəzlər çox yaxşı yuyulduqdan sonra istehlak edilməli, ot yeyən heyvanlar ev sahibi-Arakona əlaqəsini pozmaq üçün it nəcisi ilə çirklənmiş yerlərdə otarılmamalı, yoluxmuş daxili orqanlar basdırılmaqla məhv edilməlidir.

### Leptospiroz:

**Səbəb:** İnsanlara yoluxmuş sidiklə təmasda, çirklənmiş su və qida qəbul etdikdə baş verir. İnsanlarda sarılıq, böyrək funksiyalarının pozulması, dəri püskürməsi və konyunktivit kimi xəstəliklərə səbəb olur.

Qarşısının alınması üsulu: Ev heyvanları və təsərrüfat heyvanları mütəmadi olaraq peyvənd edilməli, yoluxmuş sidiklə təmasdan qaçınılmalı, sidiklə çirklənmiş yerlər dezinfeksiya edilməli, xəstə heyvanlarla təmasda olanlar əlcək taxmalıdırlar. Unutmaq olmaz ki, xəstə heyvanın sidiyi ilə yanaşı, qan və yoluxmuş toxumalar da xəstəliyin mənbəyidir. Xəstəliyi dərmanlarla müalicə etmək mümkündür.

### Leixmaniasis:

İnsanlarda və itlərdə müşahidə olunur. İki şəkildə baş verə bilər: dəridə və daxili orqanlarda müşahidə olunur. Xəstəliyin daşıyıcısı Phlebotomus növü sancı milçəklərdir (qansoran dişi qumböcəyi-qumböcəyi-yandıran). İnsanlarda Kala-Azər və Şərq çibanı kimi tanınan xəstəliklərə səbəb olur. Klinik olaraq dəri zədələnməsi, kəpək, saç tökülməsi, xora, düyünlər, burunda eroziya və qanaxma, dırnaq deformasiyaları, halsızlıq, gözlərdə qızartı, atrofiyaya, əzələlər, mədə-bağırsaq problemlərinə səbəb olur.

Qarşısının alınması metodu: Diaqnoz laboratoriya testləri və ya sürətli sahə testləri ilə edilə bilər. Müalicə mümkündür.

### Toxoplasma

**Səbəb:** Çirklənmə az bişmiş və ya çiy ət istehlakı, pişik nəcisi və ya nəcisi ilə çirklənmiş qum-torpaq ilə təmasda və ya qan köçürülməsi ilə baş verir.

Bəzən insanlarda simptomlar olmaya bilər. Onun əsas simptomları göz problemləri (torlu qişanın iltihabı), əzələ ağrıları, boğaz ağrısı, limfa düyünlərinin şişməsi, hərarətin yüksəlməsi, psixi pozğunluqlar, titrəmələr, hidrosefali, hamilə qadınlarda isə plasentadan uşağa keçərək aşağı düşə bilər.

Qarşısının alınması üsulu: Pişik nəcisi ilə təmasdan qaçınılmalıdır. Pişik zibilini təmizləyərkən əlcək taxılmalıdır. Uşaqlar pişiyin çirkləndiyi yerlərdən uzaq tutulmalıdır. Bişməmiş və ya çiy qoyun və ya ov əti yeyilməməlidir. Əllər sabun və su ilə yaxşıca yuyulmalıdır. (Daxili temperaturu 70°C olan yemək prosesi ən azı 15-30 dəqiqə çəkməlidir).

### Şiyara:

Səbəb: Bacillus anthracis adlı bakteriya. Bütün məməlilərdə görülə bilər və yoluxucudur. Bakteriya sporları təbiətdə uzun illər yaşaya bilir. Bağırsaq, Ağciyər və Dəri formaları var. İnsanlara yoluxma agentin dəridə yaranan yaralar, sıyrıqlar və cızıqlar vasitəsilə bədənə daxil olması, bişməmiş və çiy ət istehlakı, agentin inhalyasiyası və yoluxmuş qan, toxuma və mayelərlə təmasda olması nəticəsində baş verir. Xəstəlik üçün qanın təbii dəliklərdən gəlməsi və laxtalanmaması səciyyəvidir.

**Mühafizə üsulu:** Qarayaradan tələf olmuş heyvanlar yandırılmalı və ya ən azı 2 metr dərinlikdə basdırılmalı və üzərinə bol sönməmiş əhəng tökülməlidir. Xəstəliyin baş verdiyi otlaqlar heyvanlar üçün bağlanmalı, xəstələr ayrılmalı, sağlam heyvanlar olanlar peyvənd edilməlidir. Bütün tövlə materialları dezinfeksiya edilməlidir. Qoruyucu peyvənd yazda qarayara bölgələrində xəstəlik baş verməmişdən əvvəl aparılır. Heyvan məhsulları (yun, tük, dəri və s.) sterilizasiya edilir və ya müvafiq üsullarla məhv edilir.

### Vərəm:

Faktor: Anadan nəslə ötürmə göbək yolu ilə, çiy yoluxmuş süd istehlak etdikdə, havada mikroblarla tənəffüs etdikdə, xayalarda yerləşən vərəm zamanı cütləşmə, kəsilənlərin əti ilə təmasda olur. Düyünlü strukturların əmələ gəlməsinə və disfunksiyaya səbəb olur. Xroniki və ölümcül xəstəlikdir.

Qarşısının alınması üsulu: Xəstə heyvanlar müəyyən edilərək şərti olaraq kəsilməyə göndərilməlidir. Xəstələnmiş heyvanlarla təmasdan qaçınılmalı, çiy və ya az bişmiş ət və çiy süd istehlakından çəkinmək lazımdır.

### Bruselyoz:

**Səbəb:** İnsanlara ən çox yayılan yoluxma yolu çiy süd və ondan hazırlanmış məhsullardır. Çiy süd, (təzə pendir, qaymaq, yağ, dondurma) yorğunluq kimi əlamətlər görünür. Müalicəsi mümkündür.

**Mühafizə üsulu:** Təsərrüfat heyvanları peyvəndlə mühafizə oluna bilər. Xəstələnmiş heyvanlar aşkar edilərək sürüdən çıxarılır. Xəstələnmiş heyvanlar və onların toxumaları, tullantı balaları, uşaqlıq suları ilə təmasdan qaçınılmalı, əlcəkdən istifadə vərdiş halına salınmalıdır. Çiy süd və çiy süddən hazırlanan məhsullar istehlak edilməməlidir.

### Taenia sagginata:

**Səbəb:** Taenia sagginata adlı parazitdir. İshal, ürəkbulanma, arıqlama baş verə bilər.

Qarşısının alınması üsulu: Çiy və ya az bişmiş ət istehlakından qaçınılmalı, tualetdən istifadə etdikdən sonra əl yuyulmalı və gigiyena qaydalarına riayət edilməlidir. Müalicəsi mümkündür.

### Listerioz:

Xəstəliyin törədicisi Listeria monocytogenes bakteriyasıdır. Ev heyvanlarında aşağı, ölü doğuş, mastit, mərkəzi sinir sisteminin pozulmasına səbəb olur. Çox vaxt torpaqda və suda olur. İnsana yoluxma yoluxmuş qidaları qəbul etməklə keçir. Hamiləlik zamanı xəstəliyə məruz qalma, düşük,



ölü doğum, vaxtından əvvəl doğuşa səbəb ola bilər. Klinik olaraq qızdırma və əzələ ağrıları, baş ağrısı, çaşqınlıq, tarazlığın itirilməsi və qıcolmalar kimi simptomlar görünə bilər.

Qarşısının alınması üsulu: Xəstə heyvanlar müalicə edilməlidir. Çay və ya az bişmiş ət və ət məhsulları, tərəvəzlər və pasterizə olunmamış süd və süd məhsulları istehlak edilməməlidir. Müalicə mümkündür.

### Salmonella:

**Səbəb:** Xəstəliyə yoluxmuş heyvanlardan alınan ət, süd və yumurta kimi çiy və ya az bişmiş heyvan mənşəli məhsulların istehlakı səbəb olur. Klinik olaraq ishal ən vacib simptomdur. Baş ağrısı, qarın ağrısı, qusma, ürəkbulanma və yüksək hərarət ola bilər. Şəkildə yüngül qida zəhərlənməsindən ölümcül infeksiyaya qədər xəstəliyə səbəb ola bilər.

**Həkim-infeksionist Leyla Əmrahova:** "Heyvanlar insanlarda bir çox xəstəliklərə səbəb ola bilər. Bu xəstəliklərə qarayara, quduzluq, ornitoz, salmonelloz, bruselyoz, toksoplazmoz, exinokokkoz və başqa helmintozları, leyşmaniozu və s. xəstəlikləri misal göstərmək olar. Qarayara xəstəliyi inkişaf etməkdə olan ölkələrlə yanaşı, bütün dünyada yayılmış zoonoz infeksiyadır və otyeyən heyvanların xəstəliyidir. Əsasən, heyvan saxlayanlar və ət işləri ilə məşğul olanlar peşələri ilə əlaqədar tez-tez yoluxurlar. Qarayara törədicilərinin sporları torpaqda uzun illərlə qala bilir. Yoluxmuş heyvanların dərisi, yunu, əti, sümüyü yoluxmada mühüm rol oynayır.

Salmonelloz xəstəliyi də heyvanlardan insanlara keçən xəstəliklərdən biridir. Salmonelloz cinsli bakteriyalar qastroenteritə, tifoid qızdırmaya səbəb ola bilər. Salmonelloz qastroenteritinə hinlərdə saxlanılan heyvanların yaxşı bişməmiş ət və yumurtaları səbəb olur. Həmçinin, xəstə heyvanın ətindən hazırlanmış qamburger və südü də yoluxmaya səbəb ola bilər.

Salmonelloz inkişaf etməkdə olan ölkələrdə endemik infeksiyadır. Sanitar qaydalara riayət etməmək, həmçinin, içmə sularının təmizliyinin düzgün olunmaması infeksiyanın davamlı olmağından sorumludur.

Bruselyoz xəstəliyi də xəstə heyvanların yaxşı bişməmiş ətindən, südündən və heyvanlara qulluq edən şəxslərə təmas yolu ilə yoluxur. Çox təhlükəli xəstəliklərdən olan quduzluq da quduzluğa yoluxmuş heyvanların insanları dişləməsi zamanı ağız suyu vasitəsilə insanlara yoluxur. Bütün bu xəstəliklərdən qorunmaq üçün heyvanların vaksinasiyasını vaxtlı-vaxtında həyata keçirmək və sanitar qaydalara riayət etmək lazımdır".

*Ayşən Vəli*




"Bakı Ağırlaşdırıcılar"
Açıq Səhmdar Cəmiyyəti

Ünvan: AZ1063, Bakı şəh., Salyan şossesi 22-ci km,22A tel/faks (+99412) 5652132

№ 113-05 «19» Yanvar 2023-cü il.

"SƏS" qəzetinin redaksiyasına

"Bakı Ağırlaşdırıcılar" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti ümumi yığıncağının keçirilməsi barədə elanın " SƏS " qəzetində dərc olunmasına köməklik göstərməyinizi xahiş edirəm.

İclasın gündəliyində aşağıdakı məsələlər durur:

1. Səhmdar cəmiyyətinin idarəetmə orqanlarının 2022-ci il üzrə maliyyə- təsərrüfat fəaliyyəti barədə hesabatlarının təsdiq edilməsi.

2. Səhmdar cəmiyyətin mənfəət və zərərinin bölüşdürülməsi haqqında.

3. Digər məsələslər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Yığıncağın kecirilecəyi tarix: 10 mart 2023-cü il, saat 11- 00-da

Iclasın keçiriləcəyi ünvan: Bakı şəhəri, Qaradağ rayonu, Salyan şossesi 22-ci km, 22A ( zavodun inzibati binasında)

Əlaqə telefonu 012 565 21 34

Hörmətlə,
«Bakı Ağırlaşdırıcılar» ASC-nin
İdarə heyətinin sədri M.A.SULTANOV

TƏRS BAXIŞ+AKTUAL

# Anna Akopyan İranda məscid murdarladı (?!)

Ermənistanın baş nazirinin vətəndaş nikahlı arvadı Anna Akopyan bugünlərdə İranda oldu və bu olay nə qədər qəribə görünsə də İrəvanla Tehranın "qardaşlaşması" fonunda baş verdi. Qeyd edək ki, məhz bu ərəfədə İran İslam Respublikası adlandırılan ölkənin prezidenti İbrahim Rəisi Tehranda "Nüfuzlu qadınların beynəlxalq konqresi" adı altında tədbir keçirmək qərarını verib. Məqsəd bəllidir - İranda qadınlara qarşı hədsiz və çoxsaylı zorakılıqlar və onların hüquqlarının tapdanmasını pərdələmək, həmin "tədbir" vasitəsi ilə özünü təmizə çıxarmaq cəhdləri və s...





Lakin mövzu yalnız bundan ibarət deyil. Məsələ həm də ondadır ki, sözügedən teatralizə xarakterli "konqresdə" məhz 30 il boyunca Azərbaycan torpaqlarını işğala məruz qoyan, xüsusilə dini ocaqlarını, məscidlərini donuzxanalara çevirən bir ölkənin baş nazirinin arvadının orada bəh-bəhlə qarşılanması istər-istəməz suallar doğurur. Əbəs deyil ki, Akopyan orada Rəisinin arvadı Cəmilə Sadat Alamolhoda və İranın qadın işləri üzrə vitse-prezidenti Ənisə Hazali ilə səmimi görüş keçirib, ən hörmətli qonaq kimi qarşılanıb, üstəlik, klerikal rejimin dini mərkəzi - Qum hövzəsini də ziyarət edib!

Beləliklə, bu gün özünü "dünya müsəlmanlarının müdafiəçisi" kimi təqdim edib-sinəsinə döyən bir ölkənin necə deyərlər, "qulağının dibində" baş verən həqarətləri, təhqirləri görməzlikdən gəlməsinin, Qarabağdakı müsəlman qəbirlərinin, məcsidlərinin və müqəddəs pirlərinin məhv edilməsinin ardınca belə bir addıma da getməsi həqiqətən ikrah və hiddət doğurmaya bilməzdi!

Yaxud, bu gün Akopyanın ayağının altına qırmızı xallı döşəyən İran hakimiyyətinə Ermənistanın 30 il boyunca müsəlman Azərbaycana qarşı törətdiyi aqressiyasına qarşı ən azından etirazlı (!) fikir bildirməsi cəhdinə mane olan nə idi? Amma gözləməyə də dəyməzdi. Məgər həmin illər ərzində elə həmin məscidlərin tövlələrə, donuzxanalara çevrilməsinə göz yuman, əksinə, müsəlman azərbaycanlıların ev-eşiklərinin daşba-daş sökülməsində, Ermənistana, İrana daşınmasında, Qarabağ ərazisinin narkotrafikə çevrilməsində, bilavasitə iştirakçıya çevrilən də iranlı talançılar deyilmiydi???!!!

Ya da 44 günlük müharibədə Azərbaycanın qalib ordusunun irəliləməsinə maneə törədərək ciddi fəsadlara yol açmağa cəhd edən bir ölkənin rəhbərliyindən başqa nə gözləmək olardı ki..?! Əslində, İranın Azərbaycana qarşı riyakarlığından təəcüblənəməyə də dəyməz. Artıq belə bir fikir də formalaşıb cəmiyyətimizdə - ha İran olsun, ha Ermənistan, nə fərqi var ki?

İndiki zamanda, yəni müasir siyasi kataklizmlərdə ortaya çıxan növbəti isbat budur ki, Tehran rejiminin mollakrat rəhbərliyi öz maraqlarının təmin olunması üçün hətta İblisin özü ilə də təmaslar qurmağa hazırdır - təki güclənən və mühüm regional aktora çevrilən Azərbaycan Respublikasına qarşı hərhansı bir idbar əməlini icra edə bilsin. Bilirsinizmi niyə? Ona görə ki, artıq Cənubi Azərbaycanda ayağa qalxan 30 milyonluq soydaşlarımız da artıq oyanıb, Təbriz, Zəncan, Ərdəbil, Xoy - bütün qədim və tarixi Azərbaycan torpaqları oyanıb və bu oyanış tehranlı başıəmmaməliləri ciddi şəkildə narahat edir. Görünür, onlar o qədər narahat olublar ki, hətta Nikol Paşinyanın arvadı, donuz əti yeyib, şərab içən Anna Akopyanın Qum dini hövzəsindəki məscidi mundarlaması belə həmin mollaların veclərinə deyil...

***Rövşən RƏSULOV***

# "Aksiya qanunsuz cinayətkar qrupun əməllərinə qarşıdır"

"Bu gün 43 gündür ki, Laçın-Şuşa-Xankəndi yolunda ekoloji sahədə fəaliyyət göstərən QHT nümayəndələri və ictimai fəallar təbii sərvətlərimizin qeyri-qanuni olaraq talanmasına qarşı öz haqlı etirazlarını bildirən aksiyanı davam etdirirlər. Aksiyanın əvvəlindən qarşıya qoyulan məqsəd dinc əhaliyə qarşı deyil, Xankəndidə sülhməramlıların himayəsinə sığınmış qanunsuz cinayətkar qrupun əməllərinə qarşıdır". Bunu "Səs" qəzetinə açıqlamasında Qaçqınların və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Anar Xəlilov deyib.




Onun sözlərinə görə, aksiya iştirakçıları heç bir yolu bağlamayıblar: "Yol sülhməramlılar tərəfindən bağlanıb. Yoldan mülki əhali tam azad şəkildə istifadə edə bilər. Lakin Xankəndidə özlərinə sığınacaq tapmış cinayətkar qrup və onların Ermənistandakı siyasi hakimiyyətdəki havadarları öz əməllərini gizlətmək üçün bu aksiyanı siyasiləşdirərək fikri başqa istiqamətə yönəltməyə çalışırlar. Ortaya maraqlı suallar da çıxır. Əgər doğrudan da bizim təbii sərvətlərimiz talanmırsa, onda niyə monitorinq aparılmasına icazə verilmir? Niyə Xankəndidən mülki insanların dəhlizdən istifadə etməsinə həmin cinayətkar qrup maneə yaradır? Axı aksiyaçılar heç bir təhlükə yaratmırlar. Ona görə ki, bu haqlı aksiyadan özlərinin maraqlarına istifadə etmək üçün. Müharibəni uduzan Ermənistanın sosial iqtisadi vəziyyətini daha da bərbad hala salan Paşinyan hökuməti də bundan öz siyasi məqsədlərini həyata keçirməyə cəhd edir və erməni ictimaiyyətinin diqqətini yönəltməyə çalışırlar. Eyni zamanda, bu prosesdən xarici havadarlar da özlərinin geosiyasi oyunlarında istifadə etməyi düşünürlər. Avropa parlamentində qəbul edilən absurd qətnamə də buna sübutdur".

A.Xəlilov onu da bildirdi ki, həmişə olduğu kimi, bu dəfə də ədalət bizim tərəfimizdədir və ermənilərin bu vay-şüvəni 44 günlük müharibədə olduğu kimi məğlubiyyətlə nəticələnəcək: "Çox təəssüf edirəm ki, müharibədəki biabırçı məğlubiyyətdən erməni ictimaiyyəti və siyasilər nəticə çıxara bilmədi. Sülh müqaviləsi imzalamaq əvəzinə boş xülyalara inanaraq xarici havadarlarının qurduğu oyuna cəlb edildi. Bununla da bir daha öz ağır durumlarını çətinləşdirdilər. Bu gün dünyanın ağıllı siyasətçiləri yaxşı bilirlər ki, Cənubi Qafqazda əsas söz və güc mənbəyi Türkiyə və Azərbaycandır. Buraya bizlərin izni olmadan heç kim müdaxilə edə bilməz. Erməni cəmiyyəti bunu anlamalı xaricdə vay-şüvən kampaniyasını dayandırmalı və sülh müqaviləsi imzalamaqla qonşularla dinc yaşamağı öyrənməlidirlər. Aksiyanın tələbləri yetinə yetirilməlidir. Mən özüm də bu aksiyada bir neçə gün iştirak etmişəm. Bütün aksiyada iştirak edən ictimai fəallarımızı bu şərəfli mübarizəyə görə alqışlayır və minnətdarlığımı bildirirəm. Aksiyanın öz məqsədinə çatacağına qəti əminəm. Bu aksiya dinc xarakter daşıyır və məqsədi və Xankəndidəki cinayətkar qruplara qarşı mübarizə və eləcə də dinc erməni əhalisini də bu cinayətkarlardan xilas etməkdir".

***Gülyana***



Təhmasib Novruzov

# Dərviş babamızın Parisdən zəngi

**Və ya Annanın siğə xəbəri**

Şirin-şirin yatmışdım. Gecə saat neçəydi, deyə bilmərəm, bir də gördüm telefonum zırhazır zəng çalır. İstədim telefonu bağlayıb, atam bir kənara. Axı bu vaxt adama zəng eliyərlər? Sonra yarıyuxulu qərara gəldim ki, açıb, kimdisə bir-iki kəlmə söz deyim. Açanda telefonun o başında kimin səsin eşitsəm yaxşıdı? Əvvəlcədən oxucularımdan üzr istəyirəm ki, zəng vuran köhnə kişinin dediklərini korrektəsiz vermək məcburiyyətindəyəm. Yoxsa onun dediklərini başa düşmək müşkül olardı.

Sən demə gecənin bu vaxtı mənim yuxuma haram, yox e...halallıq qatan Dərviş babamız Məstəli şah imiş. Yaxşı ki, telefonu açan kimi gözümü yumub ağzımı açmadım. Dərviş babamız Parisdən zəng eləmişdi. Əvvəl-əvvəl bir az incik danışdı. Dedi ki, İranı gül kimi dağıdırdım, altını üstünə çevirməyə bir şey qalmamışdı. O qədər firənglərdən dad döyüb "hardasan ay Dərviş babamız" dediniz ki, məcbur olub Əlixaları, Vəlixaları da yığıb özümü yetirdim Parijə. Burda əməlli-başlı iş qurmuşam, Əlixalar, Vəlixalar tezliklə firənglərin başçılarını da, burdakı hay bacılarını da abıra salacaqlar. Amma bir xəbər eşidib İranı mollaların umuduna qoyub Parijə gəlməyimə çox peşman olmuşam. Dərviş babamız dil-qəfəsə qoymadan danışsa da, istədim sözünü kəsib bir-iki kəlmə də mən deyəm. İmkan vermədi. Gördüm ki, yox, kişi əməlli-başlı əsəbləşib. Telefonda hiss edirdim ki, bir yerdə dayanmayıb, əsəbindən var-gəl eliyə-eliyə danışır. Ona görə heç nə demədim, telefonun səsini açıb qoydum yastığımın üstünə. Dirsəklənib sakitcə dərviş babamızın dediklərinə qulaq asdım. Dedikləri də elə-belə söhbət ha deyil! Xülasə, Dərviş babamız İrandan Parisə yola düşəndən bir-iki gün keçməmiş hayların baş hərəmi Anna Akopyanın İrana səfər etməsindən az qala dəli olmuşdu. Görün nələr dedi: " Bu adlarını müsəlman qoyan Xomeneyi də, Raisi də Annadan xoşlanırdılar, bunu bilirdim. Onu da bilirəm ki, erməni keşişləri axçilərə plan qoyublar ki, hər axçi azı iki türkdən döl tutmalıdı. Ona görə də Xomeneyinin də, Raisinin də Annaya gözləri düşdüyünü bilən Paşikdi, Pişikdi, nədi, deyib xanımına ki, imkandı, keşişlərimizin qoyduğu planı doldurmaq üçün qaç İrana, hərəsindən bir döl tut, planı doldur, qocalırsan, bir-iki ildən sonra mümkün olmayacaq, o plan da qalacaq boynunda. Annanın da ürəyindən olur. Paşikin başı çox qarışıqdı axı, Annaya vaxt ayıra bilmir. Nə isə, burası məni maraqlandırmır. Əsas məni maraqlandıran orasıdır ki, keşişləri bunlara türkdən döl tutmağı tapşırıb, türkə xəyanət edən türk əsillilərdən yox ki! Əvvəl-əvvəl Annanı aparırlar məscidi-şərifə. Oranı murdarlayandan sonra gətirirlər ki, Xomeneyi onun Raisiyə siğəsini oxusun. Axı müsəlman adətinə görə siğəsiz olmaz belə işlər. Xomeneyi də eləmir tənbəllik, siğəni özünə oxuyur, sonra da deyir ki, İbrahim, sən get, bir il gözlə, indi mənim siğəmdədi, qoy bir il keçsin, sonra mən siğəni geri oxuyub, sənə siğə eliyərəm. Raisinin də ağzı nədi Xomeneyi həzrətləri dediyini eləməsin? Suyu süzülə-süzülə qayıdır iqamətgahına. Yanlarında olmamışam, amma aldığım təkzibolunmaz məlumata görə elə birinci gecədən Anna döl məsələsin həll edib. Gecəykən də Nikola muştuluq xəbərini göndərib ki, gözün aydın, biri hazırdı! İndi olub, olub də... Neyniyək, Şeyx Sənan da, Əli də, Kərəm də bu haylara döl vermək istəyirdilər. Hələ adlarını bilmədiyimiz milyonlarla türk döl verə-verə bu hayları meymunluqdan çıxarıb adama oxşadıblar. Üzdən adama oxşasalar da, içləri elə meymundur ki, qalıb. Onu-bunu təqlid eləmək istiyirlər, kim yem verirsə ona ağa deyirlər, yəni meymuna xas bütün xüsusiyyətləri analarının südü, qanı ilə davam etdirirlər. İndi bu Xomeneyinin, Raisinin qanlarında türk qanı axsa da, türkə qənim kəsiliblərsə, yəni şərəflərini ayaq altına atıblarsa, onların dölü də belə olacaq axı... Bilmirəm, Raisi, ya Xomeneyi onu sığallayanda (...) Annanın can-ciyərlərinin müsəlman məscidində donuz saxlamalarını yadlarına saldılar, ya yox! Hə, bir də onu xəbər elədilər ki, bir gün sonra Raisinin tapşırığı ilə onun baş mühafizəçisi Xomeneyidən xəbərsiz, gizlicə Annanı aparıblar prezidentin gizli iqamətgahına. Orada nə olduğu barədə bir söz demədilər. Amma bilirəm ki, Raisi üçün islam qaydası-flan boş şeydi, Annanın da Xomeneyiyə siğə olmasını heç vecinə də almayıb. Sözsüz ki, nəsə olub..." Bunları deyib qurtarandan sonra Dərviş babamız bir az nəfəs dərdi. Sonra davam elədi;"İndi bilmirəm neyniyim. Orda işimi yarım qoyub gəldim firənglərnən hesablaşmağa, indi də İranda belə-belə oyunlar çıxardırlar." Mən də Dərviş babamıza ağzımı açıb nəsə demək istədim. Amma birdən ayıldım. Ayılanda anladım ki, bunların hamısı yuxu imiş...

Amma yuxu olsa da, maraqlı yuxudu, deyilmi?

# Azərbaycan Avrasiyanın nəqliyyat qovşağına çevrilir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb*

## Prezident İlham Əliyev: Orta Dəhlizin parlaq gələcəyi var, Azərbaycan bunun üçün lazımi infrastruktura malikdir

Hazırda dünyanın iqtisadi sahələrində ən aktual məsələlərdən biri də Çindən Avropaya uzanan və Avrasiyanı birləşdirən "Bir kəmər-bir yol" şəbəkəsinin fəaliyyəti ilə bağlıdır. Qədim Böyük İpək yolu üzərində bərqərar olan bu şəbəkə Avrasiyanın şərq və qərbini birləşdirən 3 əsas nəqliyyat arteriyasından ibarətdir. Bunlardan biri şimal xətti, digəri orta dəhliz, daha biri isə Hind okeanından keçən cənub dəhlizidir. Son dövrdlərə Ukraynada yaranmış vəziyyətlə bağlı şimal xəttinin işində məhdudiyyətlər yaranıb, cənub dəhlizi isə daha uzun olduğundan orta dəhlizin mövqeyi güclənir. Azərbaycan da bu dəhliz üzərindədir və bu yolda çox strateji mövqeni tutur. Üstəlik, ölkənin nəqliyyat infrastrukturu bu məqsədlə xeyli təkmilləşdirilib. Orta dəhlizə tələbatın artması Azərbaycanın həm iqtisadi, həm də siyasi dividentlərini artıracaq. Burada Azərbaycanın Çinlə əməkdaşlığının inkişafı da mühüm rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibəsində bu məqamları geniş izah edib. Çin və Azərbaycan yaxşı dostlar adlandıran Prezident İlham Əliyev deyib: "Bizim beynəlxalq təsisatlar çərçivəsində çox yaxşı əməkdaşlığımız var. Biz həmişə bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Biz çox möhkəm siyasi platforma qurmuşuq. İndi isə biz bunun üzərində iqtisadi əməkdaşlığımızı qururuq. Bugünkü vəziyyətdə bu çox mühümdür, çünki yeni çağırışlar, yeni problemlər və yeni imkanlar var. Biz daha çox Çin şirkətini Azərbaycanda görməyə ümid edirik. Onlardan bəziləri müxtəlif sahələrdə artıq kifayət qədər fəaldır. Biz Orta Dəhlizlə bağlı Sədr Si Cinpinin təşəbbüslərini tam dəstəkləyirik. Azərbaycanda biz artıq öz ev tapşırığımızı yerinə yetirmişik. Biz nəqliyyat infrastrukturunun bütün zəruri seqmentlərini qurmuşuq. Həmçinin biz enerji, kənd təsərrüfatı və yüksək texnologiyalar sahələrində də əməkdaşlıq etməyə ümid edirik. İnformasiya texnologiyaları sektorunu təmsil edən bir çox Çin şirkətləri Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərir. Beləliklə bizim həqiqətən də çoxşaxəli münasibətlərimiz var".

Avrasiyanın mərkəzi nəqliyyat dəhlizi ilə bağlı Azərbaycanın roluna və mövqeyinə toxunan dövlət başçısı deyib: "Bir kəmər, bir yol" təşəbbüsü indi çox böyük coğrafiyanı əhatə edən, vaxtında irəli sürülmüş çox müdrik bir təşəbbüs idi. Azərbaycan bu təşəbbüsə ilk günlərdən fəal şəkildə qoşuldu və biz mövcud olmayan infrastruktura investisiya yatırmağa başladıq. Beləliklə, bu illər ərzində, daha dəqiq desək son 10 il ərzində biz Xəzər dənizində ən böyük ticarət limanlarından birini, bəlkə də ən böyüyünü inşa etdik. Onun yükaşırma qabiliyyəti 15 milyon tondur və biz onu 25 milyon tona qədər artıracağıq. Biz Xəzər dənizi ilə yükləri daşımaq üçün gəmiqayırma zavodunu inşa etdik.




Biz əsasən dəmir yolu infrastrukturuna investisiya yatırdıq və bunu təkcə Azərbaycanda yox, regionda da etdik. İndi isə biz bu dəmir yolunu Bakıdan qərb istiqamətində genişləndirmək üçün əlavə sərmayə yatırırıq. Biz bütün digər layihələri - avtomagistrallar, hava limanları kimi layihələri də həyata keçirmişik. Beləliklə, açıq dənizə çıxışı olmayan bir ölkə olan Azərbaycan beynəlxalq, logistik və nəqliyyat mərkəzinə çevrildi. Həmçinin "Bir kəmər, bir yol" təşəbbüsü müxtəlif marşrutlar, xüsusilə Şimal-Cənub marşrutu üzrə daşımanı fəallaşdırdı. İndi isə biz Şimal-Qərb marşrutu haqqında da danışırıq. Bu, uğurla inkişaf edən qlobal layihədir. Marşrut üzərində yerləşən bütün ölkələr artıq bunun faydasını görürlər. Əlbəttə ki, nəqliyyat layihələrinə necə münasibət göstərməsi ölkələrin strategiyasından asılıdır. Bizim üçün bu, iqtisadiyyatımızı şaxələndirmək və neft-qaz gəlirlərindən asılılığımızı azaltmaq üçün əsas amillərdən biri idi. Deyə bilərəm ki, ötən il Azərbaycan ərazisindən tranzit daşımalar 75 faiz artıb. Bu, təkcə infrastruktura görə yox, lazımi idarəetməyə görə artmışdır. Görülmüş tədbirlər bizə yükdaşımanı sürətləndirməyə, bürokratik əngəlləri aradan qaldırmağa və bunu fiziki olaraq cəlbedici etməyə imkan verir. Həmçinin tarif siyasəti də mühüm məsələdir. Çünki burada bir çox ölkələrin səylərinin birləşdirilməsi lazımdır ki, bizim razılaşdırılmış tarif siyasətimiz mövcud olsun və heç bir ölkə süni şəkildə öz mənfəətini artırmağa çalışmasın. Biz müştərək faydanı görməyi öyrənməliyik. Ərazimizdən nə qədər çox yük keçərsə, bizim bundan bir o qədər çox faydamız olar, bir o qədər də çox iş yerlərimiz olar. Çinin artıq yeni bir dəmir yolu layihəsinin təşəbbüsü ilə çıxış etdiyini və onu artıq başladığını bilirəm - Çin-Qırğızıstan-Özbəkistan. Bu layihə də bizə, Xəzər dənizinə istiqamətlənib. Bu, çox vacib əlavə təchizat marşrutudur. Orta Dəhlizin parlaq gələcəyi var".

Göründüyü kimi, Azərbaycan Prezidenti bu dəhlizin həm Avrasiya ölkələri, həm də Azərbaycan üçün əhəmiyyətini izah edib və ölkəmizin bu istiqamətdə üzərinə düşən vəzifənin layiqincə yerinə yetirildiyini deyib. Həqiqətən də, son illərdə ölkənin nəqliyyat infrastukturu xeyli təkmilləşdirilib, böyük həcmdə tranzit yüklərin qəbulu və ötürülməsinə imkan verən sistemlər formalaşdırılıb. Həm də Azərbaycan öz strateji və unikal coğrafi mövqeyindən hərtəfli bəhrələnmək imkanlarını təmin edib. Belə ki, Şərq-Qərb nəqliyyat dəhlizi ilə yanaşı Şimal-Cənub dəhlizinin də əsas qolu ölkəmizdən keçir. Üstəlik, Xəzər dənizi üzərindən də dəhzilin bir qolunu formalaşdırmaq imkanlarını təmin edir. Beləliklə, Çindən, Hindistandan gələn və oraya gedən yükləri Azərbaycan bir neçə istiqamətdə qəbul edib ötürə bilər. Həm şimaldan Rusiya vasitəsilə, həm qərbdən Gürcüstan vasitəsilə, həm cənubdan İran vasitəsilə, həm şərqdən Xəzər dənizi vasitəsilə nəqlaiyyat çıxışları var. Zəngəzur dəhlizi istifadəyə verildikdən sonra Ermənistan və Türkiyədən keçməklə daha bir böyük nəqliyyat dəhlizi yaranacaq ki, bütün bunlar da ölkəmizi Avrasiyanın əsas nəqliyyat qovşaqlarından birinə çevriləcək.



Məsələ, təkcə Şərqdən (əsasən Çin və Hindistandan) qərbə daşınması ilə bağlı deyil, həm də əksinə Qərbdən Şərqə daşınmasıdır. Prezidenti İlham Əliyev yanvarın 19-da Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Avrasiya Orta Dəhlizi: Yoldan magistrala" mövzusunda panel iclasında da bu məqamlara toxunaraq deyib: "Biz Şərqə yüklərin daşınması haqqında da düşünməliyik. Təkcə Şərq-Qərb deyil, həmçinin Qərb-Şərq nəqliyyat marşrutunun üstünlükləri üzərində işləmək lazımdır. Buna qədər diqqət yüklərin Çindən Mərkəzi Asiyaya və daha sonra Avropaya nəql olunmasına yönəldilib. Biz əks istiqamətdə yüklərin daşınması haqqında düşünməliyik. Bunun üçün isə əks istiqamətdə biznes mühitinin də hədəflərimizə müvafiq olması lazımdır".

Prezident yeni bir nəqliyyat xəttinin yaradılmasının əhəmiyyətini və ölkəmizin də burada iştirakının mümkün olduğuna diqqət çəkib: "Yeni layihələr var, məsələn, Çin tərəfindən irəli sürülən Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu. Nəticə etibarilə bu dəmir yolu Xəzər dənizi tərəfə, bizim istiqamətə uzanacaq.



Hazırda Azərbaycanı, Gürcüstanı, Türkiyəni birləşdirən və Avropaya qədər uzanan dəmir yolu bağlantısı uğurla icra etdiyimiz neft və qaz kəmərləri layihələrindən qaynaqlandı. Hesab edirəm ki, dəhlizin bu tərəfində işlər tamamlanıb, o cümlədən nəqliyyat infrastrukturu yerindədir".

Azərbaycan Xəzər dənizində 53 gəmidən ibarət ən böyük donanmaya malikdir. Son dövrlərdə Xəzər dənizində iki yeni dəniz limanı salınıb. Hazırda dəniz vasitəsilə daşımalar artır. Təkcə Türkmənistandan gələn yükün miqdarı 3 dəfədən çox artıb. Qazaxıstan və Rusiya ilə də dəniz ticarəti artıb. Dəniz limanımızın 15 milyon ton olan yükaşırma qabiliyyəti 25 milyon tona qədər genişləndiriləcək və bunun üçün büdcə ayrılıb. Bu isə Xəzər vasitəsilə də böyük nəqliyyat dəhlizlərinin yaranması deməkdr.

Dövlət başçısı bunun necə baş verdiyini izah edib: "Son 10 il ərzində biz Xəzər dənizində ən böyük ticarət limanlarından birini, bəlkə də ən böyüyünü inşa etdik. Onun yükötürmə qabiliyyəti 15 milyon tondur və biz onu 25 milyon tona qədər artıracağıq. Qərblə Şərq arasında təbii coğrafi bağlantıya malik olduğumuz üçün biz ötən illər ərzində nəqliyyat infrastrukturuna böyük sərmayə yatırmışıq. Əslində, Azərbaycanda bütün zəruri infrastruktur obyektləri daha çox yük qəbul etməyə hazırdır.

Ötən il Azərbaycan ərazisindən tranzit daşımalar 75 faiz artıb. Bu, təkcə infrastruktura görə yox, lazımi idarəetməyə görədir. Görülmüş tədbirlər bizə yükdaşımanı sürətləndirməyə, bürokratik əngəlləri aradan qaldırmağa və bunu fiziki olaraq cəlbedici etməyə imkan verir".

Göründüyü kimi, Azərbaycan dövləti həm strateji coğrafi mövqeyindən düzgün istifadə edir, həm də düşünülmüş iqtisadi siyasətlə ölkənin inkişafını təmin edir. Hazırda yaranmış qlobal vəziyyət isə ölkəmizin əhəmiyyətini daha da artırır. Şübhə yoxdur ki, yaxın gələcəkdə tranzit və logistikadan ölkəmizin gəlirləri dəflərlə artacaq. Bu isə öz növbəsində həm də iqtisadi aktivliyi artıracaq və iş yerlərinin sayını çoxaldacaq.

***Elçin***

Səs

24 yanvar
2023-cü il




## "Nar" 2023-cü ildə də sosial yönümlü peşə təlimlərinə davam edir

"Nar" 2023-cü ildə də nitq və eşitmə məhdudiyyətli insanların həyat keyfiyyətinin yüksəldilməsi istiqamətindəki layihələrini davam etdirir. Belə ki, mobil operator artıq 4-cü dəfədir ki, "Təlim Məktəbi" layihəsi çərçivəsində bu gənclərin cəmiyyətə inteqrasiyasına dəstək olmaq üçün peşə təlimləri təşkil edir. Missiya çərçivəsində həmin gənclər üçün əmək bazarında daha çox tələbat olan manikür ustalığı təlimləri keçirilir.

Ümumilikdə 3 ay davam edəcək layihə müddətində nitq və eşitmə imkanları məhdud olan 15-30 yaş arasındakı 10 gənc iştirak edir. Təlimlərin sonunda isə iştirakçılara Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzi tərəfindən müvafiq sahə üzrə şəhadətnamə təqdim olunacaq. "Təlim məktəbi" layihəsinin tərəfdaşı "Karlara Dəstək" İctimai Birliyidir. Qeyd edək ki, "Nar"ın "Təlim Məktəbi" layihəsi nüfuzlu beynəlxalq müsabiqə olan Eventiada IPRA Golden World Awards 2019 müsabiqəsində "KSM üzrə ən yaxşı layihə" nominasiyasında qalib olub. Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Bəzi avtomobillər niyə sığorta edilmir?

**Avtomobil sığortası sığorta şirkətləri tərəfindən bir neçə formatda təklif edilir. Rəsmi qaydalara əsasən istənilən nəqliyyat vasitəsinin icbari avtosığortası olmaq məcburiyyəti vardır. İcbari avtomobil sığortası olmadığı təqdirdə avtomobil sahibləri qanunla müəyyən edilmiş məbləğdə cərimə olunur.**



Onu da qeyd edək ki, Mərkəzi Bank icbari avtosığorta sahəsində sığorta şirkətlərindən edilən şikayətlər üzrə "şikayət indeksi" açıqlamağa qərar verib. Qurum bunu istehlakçıların məlumatlığının və sığortaçıların istehlakçılara münasibətdə ədalətli davranışının yüksəldilməsi məqsədilə etdiyini deyir. Bildirir ki, indeksin aylıq əsasda yayımlanması nəzərdə tutulub. Şikayət indeksi açıqlandığı tarixdən son 1 il ərzində əldə edilmiş məlumatlar əsasında hər bir sığortaçı üzrə hesablanacaq, aylıq məlumatlar əsasında yenilənəcək. Bu addım vətəndaşların avtomobillərin icbari sığortası haqlarının artımından yarana biləcək narazılığının önlənməsinə xidmət edir.

Sığorta şirkətləri qəzaların sayına görə lider olan avtomobil markalarının adını açıqlayıb. Belə ki, ən çox baş verən qəzalar Toyota (8%), Hyunday (7,9%), Kia (7,9%) və Renault (6,2%)-dir. Ötən ildə ən çox yol-nəqliyyat hadisələrini törədənlər 30-39 yaş (27,8%), 40-49 yaş (26,2%) və 60 yaşdan yuxarı (17,4%) olan avtomobil sürücüləri olub. Həmçinin əksər hallarda yol qəzalarının iştirakçıları ənənəvi olaraq kişilər olub.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Mərkəzi Bankın avto-icbari sığorta sahəsində qəbul etdiyi yeni qaydalar əsasən iki başlıca zərurətlə bağlıdır. Birincisi, hazırda praktika belədir ki, şəxs idarə etdiyi nəqliyyat vasitəsi ilə üçüncü tərəfə zərər vurduğu halda zərərin ödənilməsi prosesi zərərçəkən tərəflə zərərvuran tərəfin sığortaçısı arasında həll olunur. Yəni zərərçəkən tərəf ödənişi öz avto-icbari sığortaçısından deyil, zərərvuran tərəfin sığortaçısından əldə edir. Belə olan halda zərərlərin ödənilməsi prosesi müştəri-biznes münasibətlərindən kənarda baş vermiş olur. Yəni ödənişi alan tərəf müştərisi olmayan sığortaçı ilə qarşı-qarşıya qalmış olur.

Qeyd edək ki, Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti "Yol-nəqliyyat hadisəsində zərərçəkənin idarə etdiyi avtonəqliyyat vasitəsinə dəyən zərərin ödənilməsi ilə bağlı sığortaçılar arasında qarşılıqlı ödəmələrin tənzimlənməsinə (zərərlərin birbaşa tənzimlənməsi) dair Qayda"nı və "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (AVSMMİS) üzrə sığorta haqqı məbləğlərinin hesablanması Qaydası"nı təsdiq edb. Bəzi sığorta şirkətləri avtomobilləri sığorta etməkdən imtina edirlər. Bəzi sürücülər isə avtomobillərini yalnız əlavə ödəniş müqabilində sığorta etdirə bildiklərini deyirlər.

Sığorta şirkətlərinin daha bir tələbi isə odur ki, sığorta olunan avtomobillər mütləq həmin şirkətin ofisinin fəaliyyət göstərdiyi rayon və ya şəhərdə qeydiyyatda olmalı və orada idarə edilməlidir.



Yol hərəkəti təhlükəsizliyi mütəxəssisi, ekspert, sürücülük təlimçisi Arzu Babazadə: "Sığorta şirkətləri bununla zərərdən qaçmağa çalışırlar, bir tərəfdən onları qınamaq olur, çünki insanları çətin vəziyyətdə qoyurlar. Digər tərəfdən də qınaya bilmirik, çünki balaca mühərriklərin sığorta ödənişi rüsumu çox azdır. Nəzərə alsaq ki bu avtomobillərin çoxu taksi işləyən avtomobillərdir və bunların içində narkotik istifadəçiləri, alkoserxoş olanlar var və bu adamların psixoloji problemləri olur. Belə olduğu halda qəzalar da çox ağır olur və sığorta şirkətlərinə böyük zərər dəyir. Amma sığorta şirkətləri bu cür vəziyyətin həllinə çalışmadıqda qanunu pozurlar. Qanun buna qəti icazə vermir. Bunun həll yolu, Mərkəzi Bankla müzakirə edib ortaq məxrəcə gəlməkdir. Hər bir sürücünün sığorta şirkətlərindən şikayətçi olma, məhkəməyə vermək hüququ var. Çünki sığorta şirkəti avtomobili sığorta etmədiyi zaman həm onun əmək fəaliyyətinə ziyan vurmuş olur, həm də qanunu pozmuş olur.

Köhnə il olan avtomobilləri və kiçik həcmli mühərrikli avtomobilləri sığorta etməmək ortada gəzən dələduzlara rəvac verir. Dələduzlar rahatlıqla insanları aldada bilir, pulu alırlar ancaq ortada heçnə olmur. Pulu qazanan dələduzlar olsa da ziyanı həm sığorta şirkətləri, həm də vətəndaş ziyan çəkir".

***Havar Şəfiyeva***

# "Təhsil ocaqlarında dinlər haqqında məlumat verilməsinə ehtiyac var"

"Hesab edirəm ki, bugünkü gündə qarşıda duran ən vacib məsələlərdən biri də gənclərin zərərli dini təlimlərdən, ideologiyalardan qorunmasıdır. Bunun üçün bir neçə ciddi addımların atılmasına ehtiyac var. İlk öncə geniş maarifləndirmə tədbirləri aparılmalıdır. Orta məktəblərdə uşaqlara din haqqında doğru və dolğun məlumat vermək lazımdır". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, bəzən bildirilir ki, məktəblərdə Həyat bilgisi kitablarında bu barədə bilgilər verilir: Lakin düşünürəm ki, bu bilgilər yetərli deyil. Mən əvvəl də demişdim ki, Azərbaycan məktəblərində dinlər haqqında məlumat verilməsinə ehtiyac var. Bu məsələ qaldırılanda bəzi insanlar məktəblərdə dini fənlərin tədris ediləcəyini güman edirlər. Xeyr, burada əsas hədəf və məqsəd gənclərə dinlər haqqında məlumat verməkdir. Deməli olar ki, bütün dinlər, təriqətlər sosial şəbəkələrdə fəal təbliğat aparırlar. Bu məlumatları verməklə onları zərərli təsirlərdən və ideologiyalardan qoruya bilərik".



Deputat sözlərinə davam edərək bildirib ki, bunu biz etmədiyimiz təqdirdə gənclər asanlıqla o zərərli təsirlərə məruz qalırlar: "Ona görə də tez bir zamanda gənclərimizin din barədə maarifləndirilməsi prosesinə başlamalıyıq. Universitetlərdə, orta məktəblərdə geniş təbliğat işləri aparılmalıdır ki, zərəli dini təriqətlərin gənclərimizi öz ağuşuna almaq cəhdlərinin qarşısını ala bilək. Bu gün qəbul etsək də, etməsək də Azərbaycan cəmiyyətində xüsusən gənclər, yeniyetmələr arasında dindarlaşma prosesi olduqca sürətlə gedir. Əsas zərərli təriqətlərin, dinlərin haqqında məlumatlar verməliyik ki, onlarda immunitet formalaşsın. Hesab edirəm ki, bunun üçün bizim imkanlarımız var. Azərbaycan İlahiyyat İnstitutu fəaliyyət göstərir. Oranı bitirən gənclərimiz orta məktəblərdə bu fənləri tədris edə bilərlər".

***Ləman Əlizadə***

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**